**SAHİB CAMAL**

# MƏN DƏRDİMİ SEVİRƏM



**"Elm və təhsil"**
**Bakı – 2021**

*Redaktor*:
**İslam Sadıq**
*Filologiya elmləri doktoru, şair*

**Müəllif kitabın işıq üzü görməsində mənəvi dəstək olmasına görə Gədəbəy rayonunda fəaliyyət göstərən *“ZƏKİ KURSLARI”*na və onun kollektivinə minnətdarlığını bildirir.**

**Sahib Camal. Mən dərdimi sevirəm.**
**Bakı, “Elm və təhsil”, 2021, 208 səh.**

4702000000
qrifli nəşr
N-98-2021

**© "Elm və təhsil", 2021**

## BİR ŞAİR DAĞLARDA QIY VURUR

**Mənim gözümdən uzaq olsa da, könlümdən iraq olmayan bir şair dostum var. Gədəbəydə yaşayır, Bakıya az-az gəlir. Gəlib-getdiyini də çox zaman özündən başqa heç kim bilmir. Redaksiyaların qapısını döyməyi də xoşlamır. Ona görə qəzet və jurnallarda imzası seyrək-seyrək görünür.**

Sahib Camaldan danışıram. O Sahib Camaldan ki, şeirlərinə kəkotu qoxusu hopub, misralarında bulaq sularının duruluğu var. Ancaq onun şeirləri bəzən Gədəbəy dağlarında çaxan şimşəklər kimi uğuldayır, guruldayır, oxuyanların qulaqlarında əks-səda verir. Vətən haqqında hamı şeir yazır. Sahib Camalın Vətən haqqında yazanların çoxundan fərqi ondadır ki, onun şeirləri iliyindən, qanından süzülüb gəlir. Boğazdan yuxarı heç nə demir, çünki onun Vətən şeirlərində umacaq da, umu-küsü də yoxdu. Vətən onun üçün pul, maşın, ev-eşik yox, elə Vətəndir. Onun qəlbindəki Vətənin sərhədləri çox genişdir.

**Heç kimin deyil ha, gedən köç sənin,**
**Eylə seçimini, seçim seç sənin.**
**Görən olacaqmı, Vətən, heç sənin**
**Bütöv bayrağına sarınan vaxtın.**

Sahib Camal qəlbində bölünməmiş, paralanmamış, yaralanmamış bir Vətən yaşadır. Bu Vətənin Bütöv bayrağına sarınan vaxtını gözləyir. Ona görə də bu sətirləri yazan Sahib Camalı Gədəbəyin havası doydurmur. O hər gün heç olmasa bircə dəfə Borçalının, Dərbəndin, Təbrizin, Urmiyanın, Göyçənin, İrəvanın, Zəngəzurun havasını doyunca ciyərlərinə çəkməsə yata bilmir:

**Təbrizsiz, Dərbəndsiz bir düzdə Göyçə,**
**Ağlayır min qəlbdə, min gözdə Göyçə.**
**Bu üzdə Borçalı, o üzdə Göyçə,**
**Bütöv Qarabağı zorlanan Vətən!**

**Min-min ürək üzən, baş-baş alınan,**
**Milyon gözdən süzən, yaş-yaş alınan.**
**Dağ-dağ, qaya-qaya, daş-daş alınan,**
**Ağac-ağac, kol-kol korlanan Vətən!**

Vətəni əvvəlcə baş-baş alırlar, yəni onun keşiyində durası ağıllı, bilikli və mərd insanları aradan götürürlər. Sonra onu göz yaşları ilə isladıb yumşaldırlar. Sonra da qaya-qaya, daş-daş üyüdürlər. Nə gözəl deyilmiş misralardı. Bu şeirləri oxuyanda tükləri biz-biz durmayan, damarda qanı coşmayan, qəzəbindən dişi bağırsağını kəsməyən adamın qəlbində Vətən sevgisi olduğuna inanmıram. Çünki mən bu şeiri oxuyanda yuxarıda dediklərimi özüm yaşadım. İnanıram ki, Sahib

Camal da bu şeiri həmin hisləri, duyğuları yaşaya-yaşaya yazıb. Şeirin birinci bəndinə baxın:

**Tora salındığın gün gözə dəymir,**
**Sən, ey torpaq-torpaq torlanan Vətən!**
**Bu yanmağın hələ bir közə dəymir,**
**Yerində qovrulan, qorlanan Vətən!**

Şair üzünü bizə tutub deyir ki, Vətənin tora salındığı günü də, onu tora salanları da unutmaq olmaz. Misraların arasında yanan və bu yanmağı bir közə dəyməyən şairin özüdür. Çünki onun yanğısını heç kim görmür, qışqırtısı, bağırtısı kimsənin qulağına çatmır.

Şairə də bircə qışqırmaq, bağırmaq qalır:

**Yerdə yaşıllığın, göylüyün soldu,**
**Göyə haraylığın, küylüyün soldu,**
**Sapsarı saraldı, bəyliyin soldu,**
**Qula döndərdilər səni, ey Vətən!**

Bu şeirdə şair söz-söz yox, heca-heca yanır. Bəlkə heca-heca da bir az uzun çəkir, səs-səs yanır desək, daha doğru olar. Bəy Vətənin qula dönməyini duyan şair ancaq belə səs-səs yana bilər.

**Bir azca üz yerdən yaraladılar,**
**Vurdular, düz yerdən yaraladılar.**
**Satdılar, yüz yerdən yaraladılar,**
**Pula döndərdilər səni, ey Vətən!**

Son iki yüz ildə Vətənin başına gətirilən dəhşətləri, açılan oyunları Sahib Camal beş bəndlik bir şeirdə elə gözəl, obrazlı, yüksək sənətkarlıqla poetikləşdirib ki, onun duyumuna, tutumuna, yanğısına əhsən deməmək olmur. Bu şeirləri oxuduqca ağıllı oxucunun gözlərinin önündə 1813-cü il “Gülüstan" , 1828-ci il “Türkmənçay" müqavilələrinin bağlandığı vaxtdan üzü bəri Qarabağ dərdi ortaya çıxana qədər Vətənin başına gətirilən nə qədər dəhşətlər canlanır. Sahib Camal öz şeirlərində bu ağrıların, acıların, dəhşətlərin, sözlə şəklini çəkir, canlı poetik mənzərələr yaradır.

O tarixləri misra-misra görməyənlərə göstərir, bilməyənlərə bildirir. Sahib Camal itirilmiş, düşmən tapdağında qalmış torpaqlarımızın iyini qaçqınlardan alır:

**Bir ölümün baş daşından,**
**Hər dirimin göz yaşından,**
**O qaçqının üst-başından**
**Ancaq Vətən iyi gəlir!**

Sahib Camal bu sətirləri elə-belə yazmayıb. Onun gənclik illəri Kəlbəcərdə keçib.

Orada müəllim işləyib Sahib Camal. İndi erməni tapdağında qalmış Kəlbəcərin iyini ölənlərin baş daşından, dirilərin göz yaşından, qaçqınların üst-başından alır. Bunlar yaşanmış hisslər, duyğulardı. Ona

görə də gözəldi, ürəyə yatandı, həm də təsirlidi, lap yandırıcıdı, yaxıcıdı.

Sahib Camal ruhu azad, duyğuları, düşüncələri yalançı sərhədlərə sığmayan şairdi. Onun içində həmişə bir AZADLIQ odu yanıb. Azərbaycanın azad olmadığı illərdə onu necə də həsrətlə arzulayırdı. Elə o zaman Sahib Camal anlayırdı ki, azadlığı heç vaxt heç kimə bağışlamırlar. Azadlığı alırlar. Alınan şey də çox zaman qurbansız, ölümsüz-itimsiz olmur. Biz də azadlığımızı böyük itkilərlə qazandıq. 20 Yanvar şəhidlərinin qanlarından göyərdi Azadlığımız. Bu fikirləri şeirlə deyəndə daha gözəl alınır:

**İçində, çölündə ölümüm,**
**Dirində, ölündə ölümüm,**
**Gəzirsən əlində ölümüm,**
**Azadlıq, azadlıq, azadlıq!**

Sahib Camalın vətən sevgisindən çox danışmaq olar. Bu sevgiylə yoğrulmuş şeirlər çoxdur. Onları şeir-şeir yox, hətta bənd-bənd, sətir-sətir, söz-söz açıqlayıb şairin görünməyən, üzdə olmayan hisslərini, duyğularını işığa tutanda ağlımıza çox şeylər gəlir, fikrimizdən çox şeylər keçir. Hamısını burda desəm, oxucuların özlərinə bir şey qalmaz.

Sahib Camal lirik şairdi. Onun sevgi şeirləri də öz yığcamlığı, gözəlliyi axıcılığı, poetik fikir tutumunun sanbalı, salğarıyla seçilir. Sahib Camalın şeirləri də özü

qədər təbiidir. Ona görə də şeirləri canlı həyat lövhələrinə bənzəyir. Onları oxuyanda təkcə sözləri eşitmirsən, mütləq nələrisə gözlərinlə görürsən:

**İstəyinin neçəsinə çatmışam,**
**Neçəsinə çatmamışam o qızın!**
**Bilməmişəm necə deyib sözünü,**
**Necəsinə çatmamışam o qızın!**

**Nə vaxt dadsam, ayrılığı bal dadıb,**
**Sevincinin dəymişi də kal dadıb.**
**Ayağımı ayrı yollar aldadıb,**
**Küçəsinə çatmamışam o qızın!**

Şair sevdiyi qızın istəyinin sayını bilmir, ancaq neçəsinə çatıb, neçəsinə çatmadığı ona agahdır. O qızın sözü necə dediyini duymayıb. Görünür, o qız sözünü eyhamlarla, qaş-gözlə deyirmiş, şair də onları anlamırmış. Axı çox zaman ilk sevginin dili lal, gözləri də kor olur.

“Ayrılığın bal dadmağı", “Sevincin dəymişinin də kal dadmağı", “Ayağını ayrı yolların aldatmağı", “Şairin o qızın küçəsinə çatmamağı” gözəl poetik misralardır. Onlar ancaq istedadlı, duyğulu, həssas qəlbli şairin sinəsindən süzülüb gələ bilər. Çünki bu misralara hopmuş hisslər oxucunu da duyğulandırır. Oxucunu duyğulandırırsa, deməli, onlar əsl sənət örnəkləridir. Hələ bu harasıdır:

**Yanıb-yanıb od-közündən keçmişəm,**
**Nə üzümdən, nə üzündən keçmişəm,**
**Neçə-neçə gündüzündən keçmişəm,**
**Gecəsinə çatmamışam o qızın!**

Yanıb bir gözəlin kökündən keçmək olar. Neçə-neçə gündüzündən də keçmək olar. Vüsalı yox, ayrılığı da bal dadan sevgi əsl sevgidir. Bizim ülvi, saf, müqəddəs dediyimiz sevgi bax budur!

**Yandır ürəyimi atım eşqinə,**
**Bir ocaqlıq sevgi tutum eşqinə.**
**Yatır, ancaq orda yatım eşqinə,**
**Gözün yatan yerdə mən yata bilsəm!**

Sevgilisinin eşqi bir ocaqdır. Şair də sevgi dolu ürəyini o ocağa atıb alovunu daha da gurlaşdırmaq istəyir. Bu misralar özünü sevgisinə, sevgilisinə qurban verməyə hazır olan bir şairin ürək pıçıltılarıdır. O ürək gözəl şairimiz Sahib Camalın sinəsində döyünür və onun belə kövrək, həzin, duyumlu, doyumlu pıçıltılarını hələ çox eşidəcəyik!

**İslam Sadıq**
*Filologiya elmləri doktoru, şair*

## DƏRDİ TİKMƏ GÖZLƏRİNƏ

Yaradıcı insan fikir və düşüncələrini, hisslərini öz ağıl və zəka süzgəcindən keçirərək yaşantılarını yaradır. Bəlkə də, elə özlərini yazırlar. Doğru olanı odur ki, yaradıcı insan öz yaşantılarını öz baxış bucaqlarından işıqlandırır. Poeziyamızın Sahib Camal ünvanlı kəhkəşanı özünəməxsusluğu, təbiiliyi, səmimiliyi, duruluğu ilə diqqəti cəlb edir. Rəssama: “Məni özüm kimi yox, torpaq, bir budaqda yarpaq şəklində çək" - deyən şair təbiətə və təbiiliyə - əslində özünə qayıdır:

**O dağın dibinə çəni çəkib qoy,**
**Döşünə gül kimi dəni çəkib qoy.**
**Rəssam, çəkə bilsən məni çəkib qoy,**
**O dağın başına papaq şəklində!** – misraları ilə elə bir şəkil yaradır ki, hər rəssam onu çəkə bilməz.

Sahib Camal dünəndən sabaha yol gedən, verimi qalmayan bir ömrün gəldigedər uzaqlığına üsyan edir. İkili dünyaya – Yaxşı və pisə, sevinc və qəmə başqa bucaq altında baxan şair:

**Dərdi sevmək tamam başqa sevgidir,**
**Yaranandan mən dərdimi sevirəm**- təzadını yaradır. “Qəmi qəm yıxır" – maraqlı nəticədir.

Yol, iz, cığır-məlumluğa, bəlkə də bilmədiyimiz məchul bir aləmə yön aldığımız istiqamətimizə yönəldən

işarələrdir. Bu yol və yolçuluq başqa və fərqli dərketmə kimi yeni deyim tərzində belə ifadə olunur:

**Fikri dalda qalıb, fikrindən qabaq**
**Yüyürüb çatıbdır yol ayağına.**
**... Yolda yol görünməz, yolçu görünər**
**Yolçunun batıbdır yol ayağına**.

Nəhayət yolçuların gedəcəyi ünvan dəqiqləşir:

**Həmişə yanaşı yol gedirik biz,**
**Sən astara sarı, mən üzə sarı.**

Daxili məna bağlılığı, fikrin məntiqi davamı misralarda ahəngli bir söz düzümü yaradır:

**Demək istəyirəm, dilimə gəlməz,**
**Hər gün uzanıram mən sözə sarı.**
**... Çıxmaq istəyirəm dağdan da dağa,**
**Enmək istəmirəm mən düzə sarı.**

Yolçuluq şairin yol çəkənlərə müraciətində daha yüksək bir məqama çatır.

**Görəcəksən,**
**O da mənim kimi dardadır.**
**O tək, mən tək,**
**Məndən Allaha yol çək!**

Sahib Camalın məna yüklü misraları heyrətamiz poeziya kəhkəşanıdır. Yalnız özünə bənzəyir.

... **Sevinc əkmə gözlərinə,**
**... Dərdi tikmə gözlərinə ,**
**... Bənövşə bük ondan başqa,**
**Heç nə bükmə gözlərinə.**

Bu görüşün, sonrakı görüşlərin əzəli olsun, əziz Sahib Camal!

***İmran İslamoğlu***



## MƏN DƏRDİMİ SEVİRƏM

Yaralarım görünməyən bir əllə,
Sarınandan mən dərdimi sevirəm.
Ayaqüstü sevinc gəlib dərdimə,
Yarınandan mən dərdimi sevirəm.

Görmürük ki, hər şeyi öz yönündə,
Nə var özü yaşayır öz günündə.
Əldə daraq durub güzgü önündə,
Daranandan mən dərdimi sevirəm.

Çıxıbmı, gör uzun-endən kədərim?
Görünürmü bir gör öndən kədərim?
Arada bir o qız yöndən kədərim,
Aranandan mən dərdimi sevirəm.

Qoşulmayan məgər qoşqu sevgidir?
Sevirsənsə, bir qarışqa sevgidir.
Dərdi sevmək tamam başqa sevgidir,
Yaranandan mən dərdimi sevirəm.

Öyrənirsən, məndən öyrən gəl dərdi,
Qönçə idi, eyləmişəm gül dərdi.
Ürəyimdə Vətən dərdi, el dərdi,
Qorunandan mən dərdimi sevirəm!

## MƏNDƏN ALLAHA YOL ÇƏK

Yol çəkən,
Yola daş, xır, qır tökən.
Xır-qır üstündən tər tökən.
Yol deyim, onu gəl çək,
Tozdan, torpaqdan əl çək.
Qol çəkim, sən də qol çək,
Məndən Allaha yol çək.

Dəstələ ayağını, əlini,
Götür külüngünü, belini.
Havanı çap, bir yol tap,
Çıx göyə, göyü qaz.
Günəşi, ayı, ulduzu,
Göy boyu hər şeyi qaz.
Tap Allahı,
Allah ordadır.

Görəcəksən,
O da mənim kimi dardadır.
O tək, mən tək,
Məndən Allaha yol çək!

## YOLÇUNUN BATIBDIR YOL AYAĞINA!

Ayağına düşüb ona yalvarır,
Özünü atıbdır yol ayağına.
Elə bil min ildir, yuxu yatmayıb,
Gör necə yatıbdır yol ayağına.

Sən bir bu yolçunun hünərinə bax,
Olsa, vur-tut olar bir baş, bir ayaq.
Fikri dalda qalıb, fikrindən qabaq,
Yüyürüb çatıbdır yol ayağına.

Bu yolçu, bu yolun gözünə durub,
Həmişə özünü bu yolda qurub.
Olan var-yoxunu, daşına vurub,
Tozunu qatıbdır yol ayağına.

Özünün çəkdiyi yoldur, sürünür,
Özü də, yolu da toza bürünür.
Yolda yol görünmür, yolçu görünür,
Yolçunun batıbdır yol ayağına.

Çıxmağına çıxıb ağır da yola,
Dərdini çığırda-çığırda yola.
İz cığıra dönüb, cığır da yola,
Özünü satıbdır yol ayağına!

## TÜRKMƏNÇAY

Bir dadını buraxmayıb,
Dadından yana Türkmənçay!
Vura, özünə od vura,
Odundan yana Türkmənçay!

Hörgü hörməyib, daş töküb,
Sanki gözsüz bir qaş töküb.
Yüz doxsan üç ildir, baş töküb,
Yadından yana Türkmənçay!

Nə fərqi yatıb-yatmayıb,
Yatıb yuxuya çatmayıb.
Addım irəli atmayıb,
Adından yana Türkmənçay!



## RƏSSAM, ÇƏKƏ BİLSƏN...

Məni özüm kimi yox, ay rəssam, yox,
Çəkə bilərsənmi torpaq şəklində?
Ya da bir ağacın bir budağında,
Verə bilərsənmi yarpaq şəklində?

Gündüzün yarısı, günün sarısı,
Gecənin qarası, gecə qarısı.
Qalmaq istəyirəm yer-göy arası,
Qırmızı, göy, sarı, lap ağ şəklində.

O dağın dibinə çəni çəkib qoy,
Döşünə gül kimi dəni çəkib qoy.
Rəssam, çəkə bilsən məni çəkib qoy,
O dağın başına papaq şəklində!

## MƏNİ MƏNİM ÜSTÜMƏ ÇƏK

Qoya bilsən yanaşı qoy,
Soyuğunu istimə çək.
Yandıqca ayır odumu,
Külümə çək, tüstümə çək.

Açım səhəri danımla,
Axım gecəmə qanımla.
Yatım ağrılı canımla,
Sağlamımı xəstəmə çək.

Alt bir olsun, üst də iki,
Eşidilsin bu səs təki.
Üşüyəndə ən üstdəki,
Məni mənim üstümə çək!

## QALMAYIB

Elə bir gündəyəm, kim baxsa qorxar,
Günümdə bir baxım, görüm qalmayıb.
Dilim-ağzım ölüb, ürəyim ölüb,
Bir yerdə bir dənə dirim qalmayıb.

Qaş nədir, göz nədir o sən görəndən,
Əl nədir, üz nədir o sən görəndən.
On nədir, yüz nədir o sən görəndən,
Gəlsən görərsən ki, birim qalmayıb.

Qatıb gündüzümə çoxu mən səni,
Bilmirəm gecəmə yuxu mən səni.
Harada gizləyim axı mən səni?
Daha gizləməyə yerim qalmayıb.

Uzağı bir kədər uzaqlaşmışam,
Bir gəldi, bir gedər uzaqlaşmışam.
Bərimdən nə qədər uzaqlaşmışam,
Bəri yanımda bir bərim qalmayıb.

Sahib, varsan varda, yoxsan bu yoxda,
Özünü yaxşı tut, bir azca toxta.
Mənim ki nə azda, nə də ki çoxda,
Bir alım, nə də ki verim qalmayıb!

## GƏL TƏZƏ YARAMI GƏL, TƏZƏ SARI

Haçansa oduna yansam, çıxartma,
Özümü atıram mən közə sarı.
Həmişə yanaşı yol gedirik biz,
Sən astara sarı, mən üzə sarı.

Gəlir bu dağlara duman, baxırıq,
Bizim gözümüzü yuman, baxırıq.
Dururuq, uzaqdan yaman baxırıq,
Sən baxışa sarı, mən gözə sarı.

Bu yerdən qoparaq ayağımızı,
Bir yerdə taparıq ayağımızı.
Bir yerdə aparaq ayağımızı,
Sən cığıra sarı, mən izə sarı.

Dirsəkdən aşağı bir qol qaldıraq,
Yatan hər ağaca bir kol qaldıraq.
Gedək, bu yollarda bir yol qaldıraq,
Sən topuğa sarı, mən dizə sarı.

Əlimi atıram, əlimə gəlmir,
Gedimə gedirəm, gəlimə gəlmir.
Demək istəyirəm, dilimə gəlmir,
Hər gün uzanıram mən sözə sarı.

Gizlində yaşayıb, üzdə olsam da,
Dildə yaşasam da, sözdə olsam da.
Sizdə yaşasam da, sizdə olsam da,
Hər gün yol gedirəm mən sizə sarı.

Qaradan-qaraya, ağdan da ağa,
Dönüb soldan-sola, sağdan da sağa.
Çıxmaq istəyirəm dağdan da dağa,
Enmək istəmirəm mən düzə sarı.

Ölümüz olacaq olumuz, ömrüm,
Yağacaq qarımız, dolumuz, ömrüm.
Burda yorulacaq yolumuz, ömrüm,
Sən doxsana sarı, mən yüzə sarı.

Sahibin ömründə təzə durubsan,
Dağılan könlünü təzə qurubsan.
O gün ayrılanda təzə vurubsan,
Gəl təzə yaramı gəl, təzə sarı.

## YAZIRAM BU DUMANI

Neçə ildi bu dağda,
Azıram bu dumanı.
Bir yana çıxmaq üçün,
Qazıram bu dumanı.

Keçirəm sağ-soluna,
Qoyuram öz yoluna.
Döşdə çəkib koluna,
Cızıram bu dumanı.

Ovuc-ovuc sıxmağa,
Ayaq-ayaq çıxmağa.
Əlim tutsa, yıxmağa,
Hazıram bu dumanı.

Dərdi ot şələm edib,
Nə edib, aləm edib.
Ahımı naləm edib,
Pozuram bu dumanı.

Ürəyimdən söz sıza,
Sözüm özümə qıza.
Bəlkə, çata o qıza,
Yazıram bu dumanı!

## BU GÜN MƏMMƏD ƏMİN GÜNÜ

Bu gün kim anadan olub?
Bu gün, görün, kimin günü.
Millətimin, dövlətimin,
Azadlığa əmin günü.
Bu gün Məmməd Əmin günü!

Azad daşın, azad dağın,
Azad quşun, azad bağın,
Daddığımız azadlığın,
Bir azca da qəmin günü.
Bu gün Məmməd Əmin günü!

Yat, qaçacaq yuxun ona,
Nə var, varın-yoxun ona.
Kövrələcək, toxun ona,
Könlüm sarı simin günü.
Bu gün Məmməd Əmin günü!

Kimsəsiz, nə kəssiz durma,
Duyğusuz, nə hissiz durma.
Bu gün üçün səssiz durma,
Çalıb-oxu dəmin günü.
Bu gün Məmməd Əmin günü!

Aldığın bir nəfəsdə gəl,
Gəl canımdan can istə, gəl.
Böyük-kiçik üst-üstə gəl,
Hamılıqla cəmin günü.
Bu gün Məmməd Əmin günü!



## OXU, KƏKLİK

Səsin üstə çox soruldu sorğular,
Çöl çəməndir, çəmən çöldür səsinə.
Başım üstə qarıldaşdı qarğalar,
Qar-qarıyla elə güldü səsinə.

İçdə olan dərdim, qadam dil açdı,
Bunun üçün elə şadam, dil açdı.
Gör dərdinə neçə adam dil açdı ,
Neçəsi də sevinc böldü səsinə.

Balan, kəklik, əyninə daş geyinir,
Geyindiyi paltarına öyünür.
Bax ürəyin ürəyimdə döyünür,
Ağzımdakı dilin dildir səsinə.

Bu dağ-daşa, həm bu çənə səs verir,
Verir-verir, dönür yenə səs verir.
Yuxarıya qalxıb sənə səs verir,
Uzanıb bax məndən əldir səsinə.

Ye daşını, suyunu da iç yerdə,
Uçma göyə, hər nə uçsan uç yerdə.
Dinləmədim belə səsi heç yerdə,
Tamarzıyam neçə ildir səsinə.

Çöl qabanı, dağ keçisi dirildi,
Cüyürlərin göy küçəsi dirildi.
Gör səsinə, gör neçəsi dirildi,
Olan oldu, ölən öldü səsinə.

Oxu, kəklik, onda günün birində,
Dağa-daşa qon da günün birində.
Bəlkə, elə sonda günün birində,
Sevdiyim qız durub gəldi səsinə!

## O QALXAN ƏL GÖR KİMİNDİR?

Biləm gərək kimliyini,
Ruhdan udam adamları!
Yaxınıma buraxmamış,
Bir-bir dadam adamları!

Ola bilməz ki, yağmayam,
Dolub göyümə sığmayam.
Ha sevmişəm, nə doğmayam,
Nə ki yadam adamları!

Göydə uçam, yerdə gəzəm,
Gəzdiyim bir dərdə gəzəm,
Min gəzmişəm, bir də gəzəm,
Adam-adam adamları!

Eləsi var, qanamışam,
Eləsi var, yanımışam.
Belə-belə tanımışam,
Elə şadam adamları!

O qalxan əl gör kimindir?
O enən əl öz kimindir.
Hamısı öz görkəmindir,
Nə, unudam adamları!?!

## QIRX BEŞƏ QONUB QUŞUN

Dağıtsın dərdimi, üstümə göndər,
Sinəndə sevincin qoşun, bilirəm.
Dolu götürübsən, nə götürübsən,
Olmayıb bir dənə boşun, bilirəm.

İstənilən anda canından keçib,
Neçə quşa görə qanından keçib.
Gör neçə budağın yanından keçib,
Qırx beşə qonubdur quşun, bilirəm.

Çağla, sevindirsin xoş an suları,
Suyu bir-birinə qoşan suları.
Altına basmarlar coşan suları,
Sənin bircə dənə coşun, bilirəm.

Çıxmayıb sözündən mənimki kimi,
Düşməyib gözündən mənimki kimi.
Getməyib özündən mənimki kimi,
Hələ başındadır huşun, bilirəm.

Kəlbəcərləşdirək, Şuşalaşdıraq,
Ayağın üstündə başa-baş duraq.
Gəlsən xoşumuzu qoşalaşdıraq,
Xoşuma uyğundur xoşun, bilirəm.

Ölçülüb uzunun, enin yazına,
Yaraşır dumanın, çənin yazına.
Düşmək istəyirəm sənin yazına,
Öz yazımı sənin qışın bilirəm.

Əl atıb saçıma, başıma gəl çat,
Tullayacam yüzə, daşıma gəl çat.
Yaşayım, arxamca yaşıma gəl çat,
Sahibəm, yaşımı yaşın bilirəm!



## YANVARDA AD GÜNÜ

Yanvarın 19-u
yaxınımın ad günü,
21-i qızımın...
31-i o biri qızımın...
Deməli, 19-u sözümün
şad günü,
21-31 arası sazımın...
Arada bir gün də var,
20 Yanvar!
Təklənib, ona baxdım,
Azadlığıma darıxdım!!!
Özümlə döyüşdüm də,
Sinəmdən verdim ürək.
Aldım onun könlünü!
Adını dəyişdim də,
Dedim:"Adın mübarək!"
Azadlığın Ad günü!

## ÜRƏYİMİ DAYANDIRIM, MİN ONA

Görmək üçün dünyanın hər üzünü,
Ürəyimi dayandırım, min ona.
Dayandırsın önündə qoy özünü,
Ürəyimi dayandırım, min ona.

Uçaq, qatar hər biri bir xaraba,
Varmı, görən, onlardan son araba?
Ürəyimin meyli yoxdur qüruba,
Ürəyimi dayandırım, min ona.

Yolda duran, yolda qalan gözləmə,
Neyləyirsən, doğru-yalan gözləmə.
Çölə çıxıb taksi-filan gözləmə,
Ürəyimi dayandırım, min ona.

Nə olsun ki, yeri yoxdur qaçmağa,
Nə olsun ki, göyü yoxdur uçmağa.
Ehtiyac yox, qapısını açmağa,
Ürəyimi dayandırım, min ona.

Çöldən gir də, içə düş də gəz-dolan,
Saat beşdə, ya on beşdə gəz-dolan.
Otur evdə, işlə işdə, gəz-dolan,
Ürəyimi dayandırım, min ona.

Elə bilmə hər üzünü gəzərsən,
Elə-belə bir üzünü gəzərsən.
İstəyirsən Yer üzünü gəzəsən,
Ürəyimi dayandırım, min ona.

Etdiyimiz günaha da gedən yol,
Axşama da, sabaha da gedən yol.
Ondan keçir Allaha da gedən yol,
Ürəyimi dayandırım, min ona!



## MƏNİ ÇƏKMƏ GÖZLƏRİNƏ

Baxış süzüb o göylərdən,
Bulud sökmə gözlərinə.
Öz yağışı bəs eyləyər,
Yağış tökmə gözlərinə.

Sevgin dağın, dərən olar,
Ölç, bir uzun, bir en olar.
Çəksən də sil, görən olar,
Məni çəkmə gözlərinə.

Neçə görüş itib orda,
Öz sonuna yetib orda.
Ayrılıqlar bitib orda,
Sevinc əkmə gözlərinə.

Pəncərəni, qapını qır,
Çap edənin çapını qır.
İynəsini, sapını qır,
Dərdi tikmə gözlərinə.

Göz yaşını içə qısqa,
Çıxsın, axsın qoy bir sısqa.
Bənövşə bük ondan başqa,
Heç nə bükmə gözlərinə.

Ürəyimə daman olub,
Mənə, sənə yaman olub.
Kor çən olub, duman olub,
Gəlib çökmə gözlərimə!



## GÖYÜNDƏ HEÇ QUŞ VARMI?

Allah, sənin yanında,
Ağac varmı, daş varmı?
Sel-su dolu bir dərə,
Dərə üstə qaş varmı?

Coşan bulaq, axan çay,
Ya çöl-çəmən, ya dolay.
Yağış yağdıran yaz-yay,
Qar yağdıran qış varmı?

Dərdi çağlayanının,
Sinə dağlayanının.
Hər bir ağlayanının,
Gözlərində yaş varmı?

Əl-üzün yuyunurmu?
Kirini soyunurmu?
Düşünür, döyünürmü?
Səndə ürək, baş varmı?

Yəqin buludun dolar,
Açar, çiçəyin solar.
Bilirəm göyün olar,
Göyündə heç quş varmı?

Ya bir dərə selisən,
Ya bir təpə yelisən.
Mənim kimi dəlisən,
De, başında huş varmı?



## KƏSDİLƏR O ADAMI

Kəsdilər o adamı,
Yetiyində yaşadı.
Yaşadığı qədər də,
İtiyində yaşadı.

Oldu dilsiz-dodaqsız,
Bu qaya, daş, bu dağsız
Qaldı gövdə, budaqsız,
Kötüyündə yaşadı.

Səsinin ahənginin,
Söz-söhbəti zənginim.
Ürəyim tüfənginin,
Tətiyində yaşadı.

Nə dadlıdı, nə dadlı,
Həm doğmalı, həm yadlı.
Örtdü könlüm qəm adlı,
Örtüyündə yaşadı.

Gəzdi ah yaxasında,
Öldü gah yaxasında
Çoxu şah yaxasında,
Ətəyində yaşadı.

## GÖZLƏT GÖZÜNÜ, GÖZLƏSİN

Kirpiyinin altına sal,
Gizlət gözünü, gözləsin.
Tapşır gözünü gözünə,
Gözlət gözünü, gözləsin.

Altı kövrəyinə dəymə,
Üstü yüyrəyinə dəymə.
Dəymə, ürəyinə dəymə,
Sızlat gözünü, gözləsin.

Özün yiyə ol tozuna,
İçinə gir, dol tozuna
Gözünü dik yol tozuna,
Tozlat gözünü, gözləsin!

Sinənə ək göz yaşını,
Buraxma tək göz yaşını.
Gözündən çək göz yaşını,
Duzlat gözünü, gözləsin!

Bu nə ilkdir, nə də sondur,
Bilinməyir, birdir, ondur.
Dərdin soyuğuna dondur,
Buzlat gözünü, gözləsin!

## BU ŞAİR YENİ GÖY TAPIB

Özün özünü durula,
Ey bulaq, suyuna çəkil.
Sısqa-sısqa çoxal, böyü,
Bir dərə boyuna çəkil.

Ey günəş, bax doğuşuna,
Batıda yır-yığışına.
Ey bulud, sən yağışına,
Dəniz, sən çayına çəkil.

Yazımmı olsun daş qoşma?
Suyu getməmiş yaş qoşma.
Ulduzuna çox baş qoşma,
Ey gecə, ayına çəkil.

Ağrı ağrıyar başında,
Bəllidir gözün, qaşın da.
Ey soyuq, qal öz qışında,
Ey isti, yayına çəkil.

Beş-on nədir, mində tap da,
İl-ay nədir, gündə tap da.
Sən gəl, ay qız, məndə tap da,
Öz sevgi payına çəkil.

Doğmalıq var suda, otda,
Arazından özün adla.
Bu tayından addım at da,
Vətən, o tayına çəkil.

Qalxıb göyünü söy, tapıb,
Enib yerini döy, tapıb.
Bu şair yeni göy tapıb,
Ey quş, özündə hey tapıb,
O göydən bu yana çəkil!
Daşına, qayana çəkil!
Oxu, da qıyına çəkil!

## ÖZÜMÜ ÖZÜMƏ BASIRMIŞAM
(Sərbəst qoşma)

Yol gedirəm,
Hələ yoldayam.
Nə var olan yaşayışımı,
Dözümə basırmışam.
Görmüşük ki,
Közü külə basırarlar,
Mənsə öz külümü,
Közümə basırmışam.

Nə utanıb, nə eyib eyləmişəm,
Diz çöküb, baş əyib, eyləmişəm.
Könlüm belə deyib, eyləmişəm,
Yolumu ayağıma,
ayağımı izimə basırmışam.

Birdən qulaq asar o qız,
Hərdən oxuyuram bir ağız.
Gəzdirmirəm qələm, kağız,
Qələmimi, kağızımı
Sözümə basırmışam.

Yarı toxam, yarı acam,
Bu dünyanı
öz kökündən qoparacam.

Nə vaxt getsəm,
O dünyaya aparacam.
İndidən götürüb,
Bütöv tutub,
Gözümə basırmışam.

Öz əlimlə bölmüşəm, bölməyimi,
Kim görüb ağlamağımı, gülməyimi?
Gözləməyib ölməyimi,
Bəri başdan
Özümü özümə basırmışam!

## DAĞA QALXMAQ İSTƏDİM

Dağa qalxmaq istədim,
Qaldırım qoymadı.
Dərəyə axmaq istədim,
Sıldırım qoymadı.
Buluda baxmaq istədim,
İldırım qoymadı.
Ayağımdan dizimə çıxmaq istədim,
Baldırım qoymadı!

## YERİM TANIŞDIR MƏNƏ

Sənsiz bir boş günüm yox,
Hər bir gün işdir mənə.
Di gəl, işim getməyir,
Hər şey yanlışdır mənə.

Gözlə ili, sev ayı,
Gün keçirmə havayı.
Sənsizlikdən savayı,
Səndən nə düşdü mənə?

Bu yoldan keçdiyini,
Bu sudan içdiyini,
Bu yeri seçdiyini,
Bir quş danışdı mənə.

Göyün göyü göyçəklik,
Yerin yeri çiçəklik.
Gəldi, tapdı bu təklik,
Yenə yanaşdı mənə.

Təkliyə batdığım yer,
Yuxumu qatdığım yer,
Hər axşam yatdığım yer,
Yerim tanışdır mənə!

## ALLAHDAN ƏLUCU TUTUM

Ölsəm, məni məndə qalan,
Qalıcımla bir basırın.
Götürün özümə yetik,
Əlacımla bir basırın.

Yaddan çıxarın mən heçi,
Qırxdan durub verin üçü.
Yolsun, gətirin o saçı,
Qulacımla bir basırın.

Dərin düşüm dərinimə,
Sərin düşüm sərinimə.
Acılanım şirinimə,
Ol acımla bir basırın.

Səsi sazdan, uddan olan,
Sözü közdən, oddan olan,
Ağacı palıddan olan,
Salacamla bir basırın.

Götürməsə daşı başım,
Aşım, baş daşımdan aşım.
Yekəm olsun sinə daşım,
Balacamla bir basırın.

Kimi saçdan dəni alan,
Çənli dağdan çəni alan.
Mən öləndə məni alan,
Alıcımla bir basırın.

Toxu atım, acı tutum,
Qucum qucu, qucu tutum.
Allahdan əlucu tutum,
Əlucumla bir basırın!

## ÖLMƏK OLAR

Keçirib dodaqdan, dildən,
Dişdən sonra ölmək olar.
Gedim-gəlim hələ işə,
İşdən sonra ölmək olar.

Gedək səhər, dönək gecə,
Yanaq-yanaq, sönək gecə
Qalxaq göyə, enək gecə,
Düşdən sonra ölmək olar.

Tər-təmiz ol, soyun, yataq,
Oynayaq bir oyun, yataq.
Beşədək qol-boyun yataq,
Beşdən sonra ölmək olar!

## OLMAZ

Göyün ancaq göyü olar,
Bölünməz, bölgəsi olmaz.
Nə bir dilə gələn yurdu,
Nə də ki ölkəsi olmaz.

Düşmür, gətirim yadıma,
Yaman söz gəlsin adıma.
Adam olanın adama,
Şübhəsi, bəlkəsi olmaz.

Satan, üstündə alanın,
Doğru, altında yalanın,
Kölgə altında qalanın,
Özünün kölgəsi olmaz!



## ÖLƏRƏM TABUTLAR ÖLƏNDƏ

Ölmərəm sükutla sözünə,
Ölərəm sükutlar öləndə.
Görərəm bir ümid qalmayıb,
Ölərəm ümidlər öləndə.

Uçaram göydə quş uçanda,
Yerdə gül xoş qoxu saçanda.
Açaram bir yarpaq açanda,
Ölərəm göy otlar öləndə.

Yer döşək, çən yorğan, daş yastıq,
Olaram gecəyə baş dustaq.
Yaşasın meşədə qoy fıstıq,
Ölərəm palıdlar öləndə.

Göy üzü qapqara olanda,
Şimşək də saçını yolanda.
Dolaram buludlar dolanda,
Ölərəm buludlar öləndə.

Girərəm dərindən-dərinə,
Çıxaram sərindən-sərinə.
Ölərəm hamının yerinə,
Ölərəm tabutlar öləndə!

## DUR, GÖZÜM, ÇOXU QALXIB

İçimdə yatırmışdım,
Çölümdə qorxu qalxıb.
Bir dənəsi qalmayıb,
Hər varı, yoxu qalxıb.

Yazım, yuxuda yazı,
Qalsın qorxuda yazı.
Qalxıb oxuda yazı,
Yazıda oxu qalxıb.

Gəz acda, dayan toxda,
Yerində dur da, toxta.
Yarı ac, yarı tox da,
Acın da toxu qalxıb.

Eyni bir axarda dur,
Bir az yuxarıda dur.
İçindən çıxar da, dur,
Çölündən yuxu qalxıb.

Qalxıb ayağım, əlim,
Qalxıb dodağım, dilim,
Qalxıb kirpiyim, telim,
Dur, gözüm, çoxu qalxıb!

## SAXLA MƏN ÖLƏNƏ ÖPDÜYÜM YERİ

Sənə tapşırıram, əlin dəyməsin,
Silmə, mən silənə öpdüyüm yeri.
Elə bil bilmirsən, heç tanımırsan,
Bilmə, mən bilənə öpdüyüm yeri.

Mən bir deyən kimi min öpdürmüşdün,
Eyləyib yerini gen öpdürmüşdün.
Ağladıqca sənə sən öpdürmüşdün,
Ağla, mən gülənə öpdüyüm yeri.

Yanında sən varsan, sözünü alsın,
Qoyma, dik başını aşağı salsın.
Bölmə, necə varsa, qoy elə qalsın,
Gəlib mən bölənə öpdüyüm yeri.

Çatacaq, min gedə, gələ də saxla,
Hələ döndərib bir gülə də saxla.
Necə öpmüşəmsə, elə də saxla,
Yuma, mən gələnə öpdüyüm yeri.

Hər şeyi yuyub da, sonda yuyarsan,
Kirlədib bir qara don da yuyarsan.
Göz yaşı yaxşıdır, onda yuyarsan,
Saxla mən ölənə öpdüyüm yeri!

## QÜRBƏT ÜRƏYİMƏ, YA AYAĞIMA

Atmışam, gərək heç atmaya idim,
Gəl-get ürəyimə, ya ayağıma.
Atdığım bir yanlış addıma görə,
Nifrət ürəyimə, ya ayağıma?

Açasan, sərəsən hansına düşər?
Tuşgələ verəsən, hansına düşər?
Eyləsən, görəsən, hansına düşər?
Dəvət ürəyimə, ya ayağıma.

Doğması doğmadır, yadı da yaddır,
Adlı adam üçün bir quru addır.
Hansına görədir bu sevgi adlı,
Dövlət ürəyimə, ya ayağıma?

Könülə könül qoy, gözə göz deyim,
Nə desəm durum da, üzə-üz deyim.
Qınağıma çəkim, necə söz deyim?
Xəlvət ürəyimə, ya ayağıma.

Qaldır da əlini, əl eylə, eylə,
Uzaqdan uzağa gəl, eylə, eylə.
Gəlmişəm qapına, gəl eylə, eylə,
Hörmət ürəyimə, ya ayağıma.

Bir ilkdən süzülən, sonradan gələn,
Çox-çox uzaqlardan, anrıdan gələn.
Göydən yerə düşən, Tanrıdan gələn,
Qüvvət ürəyimə, ya ayağıma.

Qovlayıb Vətəni, yerinə köçüb,
Çıxarmaq olmayır, dərinə köçüb.
Gəlib ikisindən birinə köçüb,
Qürbət ürəyimə, ya ayağıma!

## ÜST-ÜSTƏ QOY BU CANI

Verirəm bu canımı, sənə sevincli olsun,
Mənə qəmdə çatacaq, üst-üstə qoy bu canı.
İrəliyə, arxaya, sağa-sola, hər yana,
Hər bir səmtə çatacaq, üst-üstə qoy bu canı.

Mən əynimdə pencəyi, sən də donu canlandır,
Mən ilki canlandırım, sən də sonu canlandır.
Qoy mən sənə can deyim, sən də onu canlandır,
Bir ümidə çatacaq, üst-üstə qoy bu canı.

Yediyimiz çörəyə, ya duza çatmasa da,
Üşüdüyümüz qara, ya buza çatmasa da.
Mən sənə can demişəm, ulduza çatmasa da,
Düz buluda çatacaq, üst-üstə qoy bu canı.

Çaşıb başı gedəcək, sən məni atan anda,
Yaşayacaq, öləcək ürəyi yatan anda.
Saxlanc eylə də, saxla, öz anı çatan anda,
Bir sübuta çatacaq, üst-üstə qoy bu canı.

Əyninə geyinib də, əyin əyin üstündən,
Girib yerin altından, çıxıb göyün üstündən.
Dünən, o gün etdiyi min hay-küyün üstündən,
Bir sükuta çatacaq, üst-üstə qoy bu canı.

Bir az ərköyünləşib, kürləşəcək içinə,
Çöldən görünməz olub, birləşəcək içinə.
Çıxmayacaq qırağa, yerləşəcək içinə,
Bir tabuta çatacaq, üst-üstə qoy bu canı!

## BU YAĞAN QARIN ADI NƏ?

O gün yağan ilk qar idi,
Bu yağan qarın adı nə?
Bir dənəydi, tək qarıydı,
Bu yağan qarın adı nə?

Özü öz dadıyla yağır,
Yanmamaq oduyla yağır.
Yağır, qar adıyla yağır,
Bu yağan qarın adı nə?

Gedir desin, gəlir desin,
Ağlayır, ya gülür desin?
Adını kim bilir desin?
Bu yağan qarın adı nə?

Yol bilmirsən, tuşgələ çıx,
Payızgildən, qışgilə çıx.
Soruş, öyrən, boşgələ çıx,
Bu yağan qarın adı nə?

Sopsoyuqdur, odu yoxdur,
Su dadır, öz dadı yoxdur.
Qardan başqa adı yoxdur,
Bu yağan qarın adı nə?

Bir qaşı su, bir qaşı qar,
Gələn-gedən hər qışı qar.
Bir ad da var, quşbaşı qar,
Bu yağan qarın adı nə?

## UÇUB, UCAMDAN KEÇƏRƏM

Sevgi ilə doldurub da,
İçər, bu camdan keçərəm.
Şirin bir şirinə görə,
Neçə acımdan keçərəm.

Ürəyimi tutar dərdə,
Can gələr də, can gedər də.
İçimi cavan edər də,
Çöldə qocamdan keçərəm.

Göyü göydən aldıraram,
Quşa qanad saldıraram.
Yerini dik qaldıraram,
Uçub, ucamdan keçərəm.

İndən belə min illərlə,
Barışmazam bu dinlərlə.
Özüm ac qalar günlərlə,
Heç gör acımdan keçərəm?

Adam var öz cibi üçün,
Adam da var evi üçün.
Haqq olan kol dibi üçün,
Qapı-bacamdan keçərəm!

## SÖZ GƏLƏN YERƏ GEDİRƏM

İt hürən, nə işıq gələn,
Köz gələn yerə gedirəm.
Baxış çatan yerdən dönüb,
Göz gələn yerə gedirəm.

İçdən dinən, çöldən susan,
Az ol, sözü dilə basan.
Söz gedənə getmək asan,
Söz gələn yerə gedirəm.

Küçələri çox sulama,
Suları toza bulama.
İnanıb da öz yoluma,
Toz gələn yerə gedirəm.

İstəyini sürt sinəmə,
Baxışını ört sinəmə.
Yan, qıraq yox, dərd sinəmə,
Düz gələn yerə gedirəm.

Bu yol məni özü seçib,
Tökdüyüm tərdən su içib.
Üzüm gəlməyəndən keçib,
Üz gələn yerə gedirəm.

Ayaq getməyində olsun,
Gözdən itməyində olsun.
Yollar bitməyində olsun,
İz gələn yerə gedirəm.

Sevgi daşında sevdiyim,
Bulaq başında sevdiyim,
On beş yaşında sevdiyim,
Qız gələn yerə gedirəm!



## AĞ YALAN DANIŞIRSAN

Yuxarıdan aşağı,
Dağ, yalan danışırsan.
Atıb dərəyə sarı,
Bağ, yalan danışırsan.

Ocağın tüstü salıb,
Yerini isti salıb.
Gerçəyi xəstə salıb,
Sağ, yalan danışırsan.

Söz söylə söz rəngində,
Rənginə döz rəngin də.
Yalanı öz rəngində,
Ağ yalan danışırsan!

## PARA DAĞ İSTƏYİRƏM

Bütöv daş istəmirəm,
Para dağ istəyirəm!
Onu da bu az sarı,
Bir az ağ istəyirəm!

Üst-başı toz, tikanlı,
Bir yozum yoz tikanlı.
Kol-kosu boz tikanlı,
Belə bağ istəyirəm!

Nə yaxşıdan, nə pisdən,
Umum ha yox bir kəsdən.
Yarımcan sevinc üstən,
Qəmi sağ istəyirəm!

## DÜNYA, OTUR YERİNDƏ

Yaranandan uzanıb,
Bu yer yatır yerində.
Hər gəlib-gedənini,
Atıb-tutur yerində.

Uçuq yuvadan başqa,
Dərddən, davadan başqa,
Sudan, havadan başqa,
Nə var, qotur yerində.

Çıxma, dərindən durma,
Ölmə, dirindən durma.
Yersiz yerindən durma,
Dünya, otur yerində.

## SİNƏMDƏ DAĞ QIMILDANIR

Kim görüb, dağ qımıldana?
Sinəmdə dağ qımıldanır.
Deyən, ölməyib ürəyim,
Altında sağ qımıldanır.

Canım olub param-param,
Gör yarasız qalıb haram?
Dərdinlə bağlanıb yaram,
Yara yox, bağ qımıldanır.

Ayağım dara dayanıb,
Gör başım hara dayanıb?
Hələlik qara dayanıb,
Üstündə ağ qımıldanır!

## DİN ELƏ NƏFƏSİNİ

Güldür, ağlatma, güldür,
Şən elə nəfəsini.
Göyərt, nəfəs dərəcəm,
Dən elə nəfəsini.

Çatmaz tamı, ya çatar,
Qaldır, səmaya çatar.
Artır, hamıya çatar,
Min elə nəfəsini.

Ahdan, amandan çıxar,
Yaxşı, yamandan çıxar.
Əl at, dumandan çıxar,
Çən elə nəfəsini.

Şənləndir şenliyini,
Dinləndir şenliyini,
Şenləndir şenliyini,
Şen elə nəfəsini.

Ağ üstündən qaraltma,
Qara üstdən saraltma.
Boğularsan, daraltma,
Gen elə nəfəsini.

Sağda mən, solda özün,
Yolsan, bu yolda özün.
Allahım ol da özün,
Din elə nəfəsini!

## İLAHİ, NƏ DEYİM, ÖZÜN ARAŞDIR

Yan-yörəndən soruş, desin, İlahi,
Bir gör bizə sarı güzarın varmı?
Yerdəkilər qədər yazırmı səni,
Yanında elə bir yazarın varmı?

Öz yaxşı-pisimi pisləyirəm mən,
Ancaq öz səsimi səsləyirəm mən.
Bazarlıq eyləmək istəyirəm mən,
Mənə yaraşası bazarın varmı?

İlahi, nə deyim, özün araşdır,
Bəlkə də, aramız bircə qarışdır.
Azar ayrılıqdır, azar barışdır,
Barışıb alıram, azarın varmı?

Yaxşı ki ölüm yox canında sənin,
Yoxsa, qaralardı qanın da sənin.
Ölmək istəyirəm yanında sənin,
Məni basırmağa məzarın varmı?

## SEVGİ, GÖZƏLLİK, AZADLIQ

İçmək istəyirəm,
Sumu,
Ya araqmı?
-Yox.
Onsuz da, içirəm
Susuzluqdan keçirəm,
Susayanda suyumu,
Yeri gələndə arağımı.
İstəyirəm
Sevgi ən çox.
Udmaq istəyirəm,
Havamı?
-Yox.
Onsuz da, alıram
Havadan havamı,
Havasızlıq davamı.
Hələlik
İstəyirəm
Gözəllik
Ən çox.
Yemək istəyirəm,
Çörəkmi?
-Yox.
Onsuz da, yeyirəm
Acanda çörəyimi,

Acmayanda
Aclıqdan ürəyimi
yeməməkçün,
İstəyirəm
Azadlıq
Ən çox!
Çünki
Dünyanın da ilki:
Gözəllik
Azadlıq
Sevgi!!!



## VERİM SEVGİ İÇ

Köçmədən də köç,
Köçəndə köçmə.
Ölçmədən də biç,
Tək ölçüb, biçmə.

Göyə dolmuşam,
Yerə solmuşam.
Seçkin olmuşam,
Heç məni seçmə.

Gəzəm, tək gəzəm,
Ürək, can üzəm.
Mən ölçülməzəm,
Özünlə ölçmə.

Dağda çəndən keç,
Aydan, gündən keç.
Keçsən məndən keç,
Heç yandan keçmə.

Bir iç, iki iç,
Sondan ilki iç.
Verim sevgi iç,
Heç su da içmə!

## YANDIRMIR Kİ HƏR KÖZ DAŞI

Göy də təkdi, Yer də təkdi,
Deyən, deyən tək bir mənəm.
Tək olan bir Allah, bir də
Deyən, deyən, tək bir mənəm.

Yolu tozundan ayıran,
Eni uzundan ayıran.
Üzü bozundan ayıran,
Deyən, deyən, tək bir mənəm.

Dünyaya doğub-yaxmayan,
Suyuna dönüb axmayan.
Aynasından da baxmayan,
Deyən, deyən, tək bir mənəm.

Sevmirik ki hər göz qaşı,
Yandırmır ki hər köz daşı.
Qız, sənə "Can" hər sözbaşı,
Deyən, deyən tək bir mənəm.

Bu yerin dirəyində də,
O göyün kürəyində də.
Tanrının ürəyində də,
Deyən, deyən, tək bir mənəm.

## ÇƏK SİNƏNƏ, YAT MƏNİ

Gülüşünü düyünlə,
Bağla, bir bağlanca qoy.
Dost, ya düşmən gəlməmiş,
Aləm yığılınca qoy.

Dərdi, qəmi az eylə,
Kefini də saz eylə.
Özünü bir qız eylə,
Məni bir oğlanca qoy.

Yanmağına köz taxım,
Tapım, üç-dörd söz taxım.
Barmağına göz taxım,
Üzük taxılınca qoy.

Aləm yığıla qoyma,
Dünya dağıla qoyma.
Özgə ağıla qoyma,
Özünün ağlınca qoy.

Sən harda, mən də orda,
Qoru soyuqda, qarda.
Qoy orda qalım, orda,
Dünya dağılınca qoy.

Bir az bala qat məni,
Çək sinənə, yat məni.
Ürəyinə at məni,
Söz elə saxlanca qoy!

## AĞRIMIŞAM

Bəlkə, nahaq yerdən ağrıtmışam,
Ağrı başlamışam, ağrımışam.
Bu gün də özündən ağrımağın,
Sorğu başlamışam, ağrımışam.

Qalxanda qalxmışam, enmişəm də,
Yananda yanmışam, sönmüşəm də.
Yalan yox, gerçəyə dönmüşəm də,
Doğru başlamışam, ağrımışam.

Üşüyüb soyuqdan, qardan ağrı,
Düşdü ürəyimə hardan ağrı?
Oğurlayıb ordan-burdan ağrı,
Oğru başlamışam, ağrımışam.

Qoyma yanan közü ağrımağa,
Qoymaram ki sözü ağrımağa.
Ağrımaqdan, düzü, ağrımağa
Doğru başlamışam, ağrımışam.

Ayağın üstə gəzə-gəzə bir,
Sinədə ürək üzə-üzə bir.
Ağrımamışam, təzə-təzə bir,
Ağrı başlamışam, ağrımışam.

## BİR NƏFƏSƏ BAĞLIYAM

Göydən, nə qırmızıdan,
Nə də yaşıldan gedim.
Elə bir misal çəkin,
Mən bu misaldan gedim.

Ömür-gün axındadır,
Bir çimir yuxundadır.
Mənzilim yaxındadır,
Yolu qısaldın, gedim.

Öz başımın ağlıyam,
Mən sözümün oğluyam.
Bir nəfəsə bağlıyam,
Məni boşaldın, gedim!



## ÜÇDƏ BİR ŞAİR OLMADIM

Çöldəydim, içə qoşuldum,
İçdə bir şair olmadım.
Köç gəldi, köçə qoşuldum,
Köçdə bir şair olmadım.

Keçdim küçə-küçə gəldim,
Gör üstünə neçə gəldim?
Yüz ölçüb, bir biçə gəldim,
Biçdə bir şair olmadım.

Sözüm məni aldırmadı,
Tarixinə saldırmadı.
Seçənlər əl qaldırmadı,
Seçdə bir şair olmadım.

Yol da getdim, yol da azdım,
Çəndən batdım, qardan sızdım.
Adı oldu, şeir yazdım,
Heç də bir şair olmadım.

Ölçün, biçin o tərəfə,
Gəlin, keçin o tərəfə.
Üçün üçü o tərəfə ,
Üçdə bir şair olmadım.

## SƏSİNİ ÇIXARDARSAN

Aparsa məni Tanrı,
Səsini çıxardarsan.
Hər işi edib anrı,
Səsini çıxardarsan.

Dilin damaqda qalsa,
Sözün yamaq da qalsa,
Fısıldamaq da olsa,
Səsini çıxardarsan.

Yoxam, yoxuna gəlsəm,
Oxu, oxuna gəlsəm.
Gecə yuxuna gəlsəm,
Səsini çıxardarsan.

Ürəyim çox qanayıb,
Dərd məni çox yanıyıb.
Hənirtimdən tanıyıb,
Səsini çıxardarsan

Yerləyib, göyləyib də,
Yer-Göyü əyləyib də.
Səsi söz eyləyib də,
Səsini çıxardarsan.

Gün yox, qoy olsun Ayda,
Başda baş barmaq sayda,
Çox yox, bir sevgi boyda,
Səsini çıxardarsan.

Dan üzü ağaranda,
Dağ günü yoğuranda,
Mən səni çağıranda,
Səsini çıxardarsan.

Bəy kimi geysəm bir gün,
Gözünə dəysəm bir gün.
Qapını döysəm bir gün,
Səsini çıxardarsan.

Eşq kimi, həvəs kimi.
Sevgiyə nəfəs kimi,
Sahibinə səs kimi,
Səsini çıxardarsan.

## SAHİB DÜŞÜB SEVDASINA DAĞLARIN

Eşitmədim, hələ qarşı gəlmədim,
Sözünün bir qabasına dağların.
Nəfəs aldım, bir xoş duyğu qayıtdı,
Ciyərimdən havasına dağların.

Sözü sözdür, səsi səsdir həmişə,
Ondan mənə gəldi isti həmişə.
Qonaq oldum qayaüstü həmişə,
Mamırına, xınasına dağların.

İstəmirəm, xəstə düşüm, sığınım,
Ağrılarla üstə düşüm, sığınım.
Üşümüşəm, istəmişəm, sığınım,
Qoynunda quş yuvasına dağların.

Soyuğuna dağ tək duran qarışır,
İstisinə gəlib Aran qarışır.
Yayda şimşək, qışda boran qarışır,
Savaşına, davasına dağların.

Gen dolanma, qıraq gəzmə bir otdan,
Bax özünə yorğan tutub yer otdan.
Bir yerinə yüz dərman tut hər otdan,
Canını tut dəvasına dağların.

Döyüşmüşəm, üstdə ölüm, dirim var,
Tər tökmüşəm, üstdə alın tərim var.
Saxlamışam, dar ayaqda yerim var,
Gözüm üstə obasına dağların.

Burda bulaq, bulaqdakı su sevgi,
İç o sudan, əl-üzünü yu, sevgi.
Hələ sevir, tükənməyib bu sevgi,
Sahib düşüb sevdasına dağların!



## GÖZÜMDƏ GÖZ YAŞI BİRCƏ YAĞIM VAR

Gülməyə ağıram, ağır adamam,
Bir az da ağıram mən ağlamağa.
Kimsə yağışımı görə bilməyir,
Özümə yağıram mən ağlamağa.

Qışdan durub, keçib yazdan da yaya,
Qazıram döşünü, qalmır bir qaya.
Düşüb dərələrə, bulaqdan çaya,
Göz yaşı yığıram mən ağlamağa.

Su olam, qarışam, çənə nə ola,
Bu olmaz, bəlkə də, yenə nə ola.
Bir ağlamaq gələ mənə, nə ola,
Bağıram, çığıram mən ağlamağa.

Ağlaya biləcək bircə yol olsa,
Çıxacaq gözündən göz yaşı bolsa.
Düşsün cığırıma, ağlayan olsa,
Hamıya cığıram mən ağlamağa.

Üstümdə göz qaram, bir göz ağım var,
Gözümdə göz yaşı, bircə yağım var.
Ancaq ağlamaqda daşqınlığım var,
Sanma ki, fağıram mən ağlamağa!

## SAXLAYA RUHUMU TANRININ ÖZÜ

İşıqdan götürüb bir qaranlığa,
Aparır Yer göyü atına alıb.
Yaxşı ki bir ovuc saxlayıb mənə,
O çəmən şehini otuna alıb.

Oxuyub kəkliktək səkib quzeyə,
Bir damcı azadlıq əkib quzeyə.
Güney bazarını çəkib quzeyə,
Doğunu verib də, batını alıb.

Dirimin ilkidir, ölümün sonu,
Geyinib əyninə gün sarı donu.
Qorxu qarşısında ürəyim onu,
Sinədən çatladıb, çatını alıb.

Son olar anrıdan anrının özü,
İlk olar sonradan sonranın özü.
Saxlaya ruhumu Tanrının özü,
Göylərin yeddinci qatına alıb.

Dağılır iç-çölü səsdə başımın,
Qurtarmır azarı xəstə başımın.
Bir çənə yellənir üstə başımın,
Bir çənə başımı altına alıb!

## ÜRƏYİNİ QUR DA, SİNƏNDƏN DÖYÜN

Nəyi oxuyursan, ürəkdən oxu,
Oxuduğun oxu hamımızındır.
Hamının üzündə gəzdir gözünü,
Seçmə acı, toxu hamımızındır.

Ürəyini qur da, sinəndən döyün,
Özünü yarat da, özündən öyün.
Gözümüz üstündə olsun yer-göyün,
Nə var, azı, çoxu hamımızındır.

Hamımız gedirik ölümə sarı,
Kimsədə yol sondur, kimsədə yarı.
Bunu kim bilmir ki, varlının varı,
Yoxsulun da yoxu hamımızındır.

Hamını oxudur dünyanın ömrü,
Xoş iydir, qoxudur dünyanın ömrü.
Şipşirin yuxudur dünyanın ömrü,
Bu şipşirin yuxu hamımızındır.

İrəli aparsaq, geri gətirsək,
Yaşayıb boşuna günü itirsək.
Düşünüb bir yerdə bütöv götürsək,
Bu dünya da axı hamımızındır!

## BU TOYU GÖZƏL EDİBSƏN

De, nəyi çirkin yaradıb?
De, nəyi gözəl edibsən?
Gözəl etmədiyin yoxdur,
Hər şeyi gözəl edibsən.

Kimi yoldan azdırıbsan?
Kimdən kimə yazdırıbsan?
Məndən ötrü qazdırıbsan,
Bir quyu gözəl edibsən.

Yığıb oflardan, oylardan,
Eyləyib götür-qoylardan.
Qabaq etdiyin toylardan,
Bu toyu gözəl edibsən.

Sən ol dərimi soymaqda,
Mən olum sevib doymaqda.
Qarşı-qarşıya qoymaqda,
Yer-göyü gözəl edibsən.

Tanrım, durma, en aşağı,
Etmə səsdən bu aşığı.
Yaratmaqda bu işığı,
Bu suyu gözəl edibsən!

## RUS, ÇIX QARABAĞDAN

Girdin bir, çıx iki,
Rus, çıx Qarabağdan!
Daha səs çıxarma,
Sus, çıx Qarabağdan!

Az məndən yazı yaz,
Az mənə quyu qaz.
Bəsdir, məni güd az,
Pus, çıx Qarabağdan!

Din də... İndi di din,
Get, olsun son gedin.
Dərbəndimi yedin,
Qus, çıx Qarabağdan!

Sıyır da siyrığın,
Buyur buyuruğun.
Erməni quyruğun,
Qıs, çıx Qarabağdan!

Sudur sular sonu,
Qurdun ular sonu,
Sənə olar sonu,
Pis, çıx Qarabağdan!

Özünü əylə da,
Çox getmə göylə də...
Sahibi eylə də,
Hiss, çıx Qarabağdan!

## ÖLDÜRÜM SİNƏMDƏ BİR DOST, BASIRIM?

Əlimə əl verən, əlini saxla,
Sevgisiz əlini əlim qorumaz!
Mənə dostum deyən, dilini saxla,
Sevgilim söyləsən, dilin qurumaz!

Bəlkə də, öldürüm özümü sənə,
Eyləyim özümə bir qəsd, basırım!
Dostunam dedin ki, Sevgilim, mənə,
Öldürüm sinəmdə bir dost, basırım!?

Canını ağlayır xəstə çiçəyi,
Günündən gün aşır, yoxlamaq olmur.
Neyləsən, açılmır dosta çiçəyi,
Dostu sevgilitək qoxlamaq olmur.

Bilsəm, gözündəki ayna mənimdir,
Yerdə dayanmazdım, göyə çıxardım.
Elə bilərdim ki, dünya mənimdir,
Yerə də, göyə də yiyə çıxardım.

Ağlayıb dolacaq su dolmağına,
Sən olma, qoy olum mən özbaşına.
İkisi də sudur su olmağına,
Neynək, sən suya çim, mən göz yaşına.

Dərdin ürəyimi salar altına,
Qalar, getməz ömür-gün boyu izi.
Girmişik, çimirik sular altına,
Gör necə ayırır bu sular bizi.

İçək, ömrümüzün boyunca içək,
İçək bu suların qataq başını.
Çəkək başımıza, doyunca içək,
Sən bulaq suyunu, mən göz yaşını.

Mən səni seçmişəm bir seçiməcə,
Quzuna dönmüşəm, mələməmişəm.
Ayrı bir çölə yox, öz içiməcə,
Yağanda yağmışam, çiləməmişəm.

İçimdən keçənlər çölümdən keçmir,
Çöldəkini içə daşımaq olur!
Sevginin bir yolu ölümdən keçmir,
Sevgidə ölmək yox, yaşamaq olur!

## RUS GƏLDİ QARABAĞA

Rus gəldi Qarabağa,
Rusbaşlılar sevindi.
Başına kül olmuşlar,
Bir daşlılar sevindi.

Darıxmağı buraxaq?
Ya bir az da darıxaq?
Ürəyi quştək qorxaq,
Can quşlular sevindi.

Başsız Başımdan olum,
Gözsüz qaşımdan olum,
Məni yaşımdan olum,
Mən yaşlılar sevindi!

## KİMDİR, GÖRƏN, BU RUSİYA?

Düşmənimi dost, dostumu
Yağı görən bu Rusiya.
Torpağımı kəsib ona,
Buna verən bu Rusiya.

Dörd yanımdan qanqal əkdi,
Elə bildi gülüm təkdi.
Ermənidən çəpər çəkdi,
Kərən-kərən bu Rusiya.

İrişdi, gülmədi hay da,
Nə yaxşı ölmədi hayda?
Düzəldə bilmədi haydan,
Yaxşı törən bu Rusiya.

Gərək olam başbuğ, baş qurd,
Dolsun qalmasın bir boş yurd.
Tatar-tatar, Başqırd-başqırd,
Məni dərən bu Rusiya.

Qollanan bu qol yazıdır,
Yenə mənə yol azıdır.
Torpağıma əl uzadır,
Kimdir, görən, bu Rusiya?!

**KEÇDİYİN DƏRSİN MÜBARƏK!**

Keçdiyin dərsin mübarək,
Dərsini düz keçən Ordum.
Ən yaxşı dərsini keçdin,
Mövzunu düz seçən Ordum!

Adam istəyir quş ola,
Uça da, quşa qoşula.
Əl vurmayıb bir yaşıla,
Bom-bozları biçən Ordum!

Ayaqdadır, şəhər durub,
Kənd olub səfərbər durub.
Səndən ötrü səhər durub,
Səhərə and içən Ordum!

Coş Şuşaya, daş Göyçəyə,
Qalıb bir yal, qaş Göyçəyə.
Kəlbəcərdən aş Göyçəyə,
Qarabağa köçən Ordum!

Qarayazı üzqarası,
Sağalsın Təbriz yarası.
İrəvan Dərbənd arası,
Olsun sənin küçən, Ordum!

## BAX BAYRAĞA, AY ALLAH

Dön, yağış suyuna dön,
Ax bayrağa, ay Allah!
Dünya üçün doğubsan,
Yax bayrağa, ay Allah!

Qopub qeyri səsdən sən,
Öz səsinlə səslən sən.
Bir bayraq da üstdən sən,
Tax bayrağa, ay Allah!

Fərəh gəlib quşa da,
Dağda kola, daşa da.
Dalğalanır Şuşada,
Bax bayrağa, ay Allah!

## GÖYƏ, QIRMIZIYA, YAŞILA GÖRƏ

Mən içki içmirdim Şuşa gedəndən,
Hərdən içəndə də ağı içirdim.
Ürəyim göydəki quşa gedəndən,
Sinəmə çəkilən dağı içirdim!

Daşları daşlaşan daş ilə görə,
Başları başlaşan baş ilə görə.
Göyə, qırmızıya, yaşıla görə,
Qaranı yeyirdim, ağı içirdim!

Göyərmək üzrəydi sevgim Şəkidən,
Elə o an düşdü çəkim çəkidən.
Sözlə bu günədək doxsan ikidən,
Tökürdü qanımı yağı, içirdim!

Hələ saralmamış barı üstündə,
Qoymurdum ki, qalsın yarı üstündə.
Alması, heyvası, narı üstündə,
Sıxırdım suyunu bağı içirdim!

Dilimə ilişən düyündən ötrü,
Deyim bu düyünün nəyindən ötrü?
Bilirdim gələcək bu gündən ötrü ,
Solu saxlayırdım, sağı içirdim!

## QARABAĞIN ADIDIR

Ev-ev artıb kənd olmağa tələsir,
Bal olmağa, qənd olmağa tələsir.
Ürəyimə bənd olmağa tələsir,
Sətirlənən Qarabağın adıdır!

Var deyirəm onu sevən kəsə mən,
Yox deyirəm aha dönən səsə mən.
İnanıram varlığına kəsə mən,
Xatırlanan Qarabağın adıdır!

Oyan, oyan səsdə yatan Qarabağ,
Qar-boranda, sisdə yatan Qarabağ.
Xətir üstə xəstə yatan Qarabağ,
Xətirlənən Qarabağın adıdır!

Yurd içinə, yurd dışına bölgədir,
Yurd adına bir ulusdur, ölkədir.
İşığına özü boyda kölgədir,
Çətirlənən Qarabağın adıdır!

Başda duran Şuşa adlı göyçəkdir,
Yalan deyil, gerçəkdən də gerçəkdir.
Qışı, yazı ən qoxulu çiçəkdir,
Ətirlənən Qarabağın adıdır!

Hə deyirəm onu sevən şaha mən,
Yox deyirəm amana mən, aha mən.
İnanıram günəşinə daha mən,
Bədirlənən Qarabağın adıdır!



## ÖLSÜN ƏLƏSGƏRTƏK QULLARIN, DAĞLAR!

*(A. Ələsgər)*

Daha qul deyilsən, Aşıq Ələsgər,
Qulları öldürdük, qullar öldülər!
Bütöv bir elatı köçkün eyləyən,
Yolları öldürdük, yollar öldülər!

Yerdə işıqlandıq, göydə parladıq,
Yağını bir-bir yox, min-min darladıq.
Karı qulaqladıq, koru korladıq,
Lalları öldürdük, lallar öldülər!

Dolaşırdı keçən ayağımıza,
Qırov-qar, duman-çən ayağımıza,
Dolaşmamaq üçün ayağımıza,
Kolları öldürdük, kollar öldülər!

Eyləməkdən ötrü bütöv elləri,
Gözlədik, keçirib neçə illəri...
Kəsdik düz biləkdən əyri əlləri,
Qolları öldürdük, qollar öldülər!

Sahib eldən uzaq deyil şadlanan,
Onsuz, eldən deyil elə yadlanan.
Gün də gəlsin, deyim "rüşvət" adlanan,
Pulları öldürdük, pullar öldülər!

## OBASI ALINAN OBALI ATAN

*(Şəhid atalarının dilindən)*

Oğul, de, oynasın hansı havaya?
Havası alınan havalı atan!
Axı ölümünə savaş başlayıb,
Davası alınan davalı atan!

Dərdinə ovçudur, ovda yaşayır,
Könlündə bir ayrı sevda yaşayır.
İndi dərd adlanan evdə yaşayır,
Yuvası alınan yuvalı atan!

Qarışıb bilinmir, qara ağdadır,
Açıb sinəsini yara bağdadır.
Ruhunla bir yerdə Qarabağdadır,
Obası alınan obalı atan!

## BALANA SAXLAMA SƏN ÖLÜMÜNÜ

Onu yen, o səni yenə bilməsin,
Yenilməzliyinlə yen ölümünü.
Ayrı güc nə lazım, özündə güc tap,
Götür ayaqlardan, en ölümünü!

Yatıb qaranlıqda, qalxıb toranda,
Bir yol üşüməyib qarda, boranda.
Dağdan düşən kimi tapıb aranda,
Duman ölümünü, çən ölümünü!

Yığışdır çöllərdən, əlinə götür,
Öləcək içində, içinə ötür.
Gözünün üstündən altına gətir,
Hər bir yaşadığın gün ölümünü!

Bircə qarış torpaq tap, qoy göyərsin,
Çürüməsin bir də, lap qoy göyərsin.
Öləndə ölünə, səp qoy göyərsin,
Eyləyib bir ovuc dən ölümünü!

Fərq eyləməz onu bir at, ya yüz at,
Atanda gülləni hədəfə düz at.
Gününü ağ eylə, ömrünü uzat,
Dirilt içindəki mən ölümünü!

Ömrünün, gününün axınındadır,
Bu gün var, sabah da yox anındadır.
Harda olursan ol, yaxınındadır,
Eyləmə özündən gen ölümünü!

Canıma yüz qorxu bağladım, balam,
Mən öz canım üçün ağladım, balam.
Ölümümü sənə saxladım, balam,
Balana saxlama sən ölümünü!



## TANRI ÜRƏYİMƏ GƏLİB, DEYƏSƏN

Sevincinə sarı addım atasan,
Dərdi ürəyindən silib deyəsən.
Bilmədiyin sözü danışmayasan,
Özünü öyrənib, bilib, deyəsən.

Boranlı ömrünü qar-qışıyla yox,
Danışasan dillə, göz-qaşıyla yox.
Ağlamaqla deyil, göz yaşıyla yox,
Deyəndə sözünü gülüb, deyəsən.

Vətəndən Vətənə köçə ki Vətən,
Ola Təbrizdə bir küçə ki Vətən.
Bütövə dönməyib neçə ki Vətən,
Hər şeyi ikiyə bölüb, deyəsən!

Meydan sulayırdı şaha sinəmdə,
Təslim olmayırdı aha sinəmdə.
Ürəyim atlanmır daha sinəmdə,
Ürəyimin atı ölüb, deyəsən?!

Düşüb soyuğuma, bişib istimə,
Dönüb dumanıma ,qara tüstümə.
Özünü o göydən atıb üstümə,
Tanrı ürəyimə gəlib, deyəsən!

## KÖÇÜMÜ YATIRDIN YATDI

Daha oyanmaz, oyanmaz,
Neçəmi yatırdın, yatdı.
Beşimdən ikisi oyaq,
Üçümü yatırdın, yatdı!

Papağıma, yaylığıma,
Həsrət qaldım oylağıma.
Qışlağımdan yaylağıma,
Köçümü yatırdın, yatdı!

Nə dərd mənə qulaq asdı,
Bilinmədi toydu, yasdı.
Yol-izimi alaq basdı,
Küçəmi yatırdın, yatdı!

Yaşadığım küçə döndü,
Dönə dönüm neçə döndü.
Nə var, varım heçə döndü,
Heçimi yatırdın, yatdı!

Torpaq-torpaq, bölgə-bölgə,
İşıq-işıq, kölgə-kölgə.
Çölümdən görünmür, bəlkə,
İçimi yatırdın, yatdı!

## HƏR KİŞİ BİR VƏTƏNDİR

Bir yurddur Gözəl işi,
Ər işi bir Vətəndir!
Hər kəsin ağzındakı,
Hər dişi bir Vətəndir!

Aşığın döşdə sazı,
Alim yazdığı yazı.
Adamların ən azı,
Dörd-beşi bir Vətəndir!

Ayağa salınmasın,
Daşlara çalınmasın.
Kişilik alınmasın,
Hər Kişi bir Vətəndir!

## SALAM, ORDU, SALAM, QOŞUN

Birimiz yüz olmalıyıq,
Yağıdan göz olmalıyıq,
Bu gündə biz olmalıyıq,
Özüm ordu, balam qoşun,
Salam, ordu, salam, qoşun!

Əlin diri, qolun diri,
Çevrilməsin yolun geri.
Qarabağa doğru yeri,
Ordu-ordu, qoşun-qoşun,
Salam, ordu, salam, qoşun!

Ayaq basıb yolu doldur,
Qucaq açıb qolu doldur,
Yeri, Göyü dolu doldur, ,
Qalmasın bir yerdə boşun,
Salam, ordu, salam, qoşun!

Yerinin gül iyində də,
Ucqar bir dağ köyündə də.
Gözün olsun Göyündə də,
Qanamasın bircə quşun,
Salam, ordu, salam, qoşun!

Get arxanca göz qoşur o,
Ocaq çatır, köz qoşur o,
Sənin üçün söz qoşur o,
Şairindən gəlsin xoşun,
Salam, ordu, salam, qoşun!

## OTURUB BAŞIMDA PAPAQ RAHATCA

Qarabağ atının minib belinə,
Ağdama, Şuşaya çapaq rahatca.
Sürək Cəbrayıla, ya Qubadlıya,
Axtaraq keçmişi, tapaq rahatca.

Dayanaq, əylənək neçə kəndüstü,
Eybi yox altı bal, olsun qənd üstü.
Ağoğlandan keçib Xocəvənd üstü,
Zəngilana sevinc yapaq rahatca.

Dərdimin qırılan qıçına görə,
Ürəyimdən qaçhaqaçına görə,
Kəlbəcər, Füzuli, Laçına görə,
Oturub başımda papaq rahatca.

Ağdərəyə gedən yollar oynasın,
Olaq, Xocalının olaq aynası.
Xankəndi odunda qazan qaynasın,
Bir gün götürülsün qapaq rahatca!

## VAXTIN QULAĞINI BURUB GEDİRƏM

Üstümə-başıma əl gəzdirib də,
Hər səhər özümü qurub gedirəm!
Güzgüdən özümə göz süzdürüb də,
Əlimi əlimə vurub gedirəm!

Ayağım getmir ki, məni sürüyə,
Az qalır ürəyim düşə, yeriyə,.
Axşam dönəsiyəm yenə geriyə,
Beş-on dəqiqəyə durub gedirəm!

Ay Sahib, dur yiyə ol saatına,
Nə belə baxırsan yol saatına?
Ürəklə əl atıb qol saatına,
Vaxtın qulağını burub gedirəm!

## QƏFƏSİMƏ DURUM

Bir bax, neçə yad səs deşir qulağımı,
Biri də gəlmir ki, həvəsimə durum.
Yerindən aşağı düşür qulağımı,
Hər gün qulaq asım da səsimə, durum.

Görünmür ki, yoxdur elə də bir boyum,
Baxım heç olmasa, öz kölgəmə doyum.
İçimdə saxlayıb, içimdəmi qoyum?
Almayıb, çəkməyib, nəfəsimə durum.

Ayrı yana, yönə eyləməyib meyil,
Ay Sahib, beləcə dur da, içdən yeyil.
Qəfəs özünündür, özgəninki deyil,
Azərbaycan adlı qəfəsimə durum?!



## HAMI YEYİR, SÖZ QUSUR

Yalan eyləməyim qoy,
Olum, gerçəkdən susum.
Söz gəlməmiş adıma,
Ağzı göyçəkdən susum.

Özümü salım borca,
Ömürlük qalım borca,
Göz yaşı alım borca,
Neçə kövrəkdən susum.

Edim dağımı dəvə,
Durum daş sevə-sevə.
Ağacdan, yarpaqdan və
Otdan, çiçəkdən susum.

Almadığım davadan,
Qurmadığım yuvadan,
Udmadığım havadan,
Acım, çörəkdən susum.

Tapın sözündən qüsur,
Hamı yeyir, söz qusur.
Susanlar dildən susur,
Qoy mən ürəkdən susum!

## YATMAQ İSTƏYİRƏM İÇKİDƏ

Belədə çatmıram Allaha,
Çatmaq istəyirəm içkidə.
Canımı qatmıram Allaha,
Qatmaq istəyirəm içkidə.

Gündüz günəşlə; o yalqızla,
Gecələri ayla, ulduzla.
Qol-boyun da olub o qızla,
Yatmaq istəyirəm içkidə.

Düşürəm bir ayrı azara,
Adamdan dönürəm yazara.
Dərdimi çıxarıb bazara,
Satmaq istəyirəm içkidə.

Dönməyə fağıra, yazığa,
Dözməyə soyuğa, sazağa.
Özümü götürüb uzağa,
Atmaq istəyirəm içkidə.

İşıq, ya çıraq olsun içib,
Qələm, ya varaq olsun içib,
Su olsun, araq olsun içib,
Batmaq istəyirəm içkidə!

## QARLA QARI QARLA, DAĞLAR

Üst-başını kol-kos alıb,
Tikanını darla, dağlar.
Bir dişlək qar verərsənmi?
Gəlsəm yayda yarla, dağlar.

Çay yox, yanla göl üstünə,
Nə ağlamaq, gül üstünə.
Bir get, iki gəl üstünə,
Qarla qarı qarla, dağlar.

Neçə ki bu Sahib sağdır,
Sinəsinə dağın dağdır.
Qar olmasa, yağış yağdır,
Sel-suyunu carla, dağlar!

## YENƏ DƏ GÜN ÇIXIB, DAĞLAR GÜNDƏDİR

Durmuşam yuxudan yenə o başdan,
Yenə də gün çıxıb, dağlar gündədir.
Yarpaq, ot deməyib, çiçək deməyib,
Üstünə gün düşüb, bağlar gündədir.

Çağlamasa ölsün, heç döyünməsin,
Anlayır Göy Yerin, Yer Göyün səsin.
Çağlamağı ilə çay öyünməsin,
Mənim də ürəyim çağlar gündədir.

Ey bulud, ağlayıb, keç bir ağlar gün,
Ağla Sahibə də, seç bir ağlar gün.
Gözündə görünmür heç bir ağlar gün,
Bəs niyə baxışın ağlar gündədir?!

## MƏKTUB
**( Rəşad Ələddinoğluna )**

Telefonla yay səsimi,
Kəlbəcərə məndən salam.
Görən, çatıb o gün ona?
Göndərmişdim çənlə salam.

Göndər bir saç hörən mənə,
Qarda bir gül dərən mənə.
Göndərməklə, görən, mənə,
Yaraşırmı gendən salam?

Könlün vursun, üzün gülsün,
Hamı səni igid bilsin.
Gədəbəyə göndər, gəlsin,
Mən də deyim səndən salam.

Sinəm qopur öz yerindən,
Sevinc üzdən, dərd dərindən.
Ayrılıqda bir-birindən,
İldən, aydan, gündən salam.

Qoy göyünə solsun Tanrı,
Qoy yerinə dolsun Tanrı,
Qoy yardımçın olsun Tanrı,
Mən deyirəm dindən salam.

## MƏN DAHA HƏR ŞEYİ NİSYƏ ALIRAM

Acından ölənlə yarı bölməyə,
Mən daha hər şeyi nisyə alıram.
Yarı yaşamağa, yarı ölməyə,
Mən daha hər şeyi nisyə alıram.

Əlimdəki çanta əlimi əzir,
Boş-boş gəzdirməkdən adam da bezir.
Çoxdandır pul məndən aralı gəzir,
Mən daha hər şeyi nisyə alıram.

Mayanı bir yana at, mayanda qoy,
Pulun olsun, pulun çatmayanda qoy.
Satan da sağ olsun, satmayan da qoy,
Mən daha hər şeyi nisyə alıram.

Soyuq suyum da yox dağın qarıca,
Qalıb bir ürəyim, canım quruca.
Qollayıb girirəm bir illik borca,
Mən daha hər şeyi nisyə alıram.

Bilmirəm, dərdimi haraya sancım?
Dost-tanış yanında olur utancım.
Bir ildir sələmə gedir qazancım,
Mən daha hər şeyi nisyə alıram.

Heç yerdə getmədi dərcə gizləncim,
Açıldı tək bircə mərcə gizləncim.
Gizlində qalmadı bircə gizləncim,
Mən daha hər şeyi nisyə alıram.

Birinin satmağa dəst-dəst göyü var,
Çalışır satılsın, bir səs-küyü var.
Mənə inananlar verir nəyi var,
Mən daha hər şeyi nisyə alıram.

Yox idi dəbimdə nisyə dəftəri,
Sözümdə təbimdə nisyə dəftəri.
Gəzirəm cibimdə nisyə dəftəri,
Mən daha hər şeyi nisyə alıram.

Başımın altına balınc gələli,
Yatışım özümə gülünc gələli,
Yoxsulluq əlində qılınc gələli,
Mən daha hər şeyi nisyə alıram.

Gedim, yerişimə yeriş demirəm,
Heç bu işimə də bir iş demirəm.
Ayrılıq demirəm, görüş demirəm,
Mən daha hər şeyi nisyə alıram.

Saz deyiblər, onu çalmışam nisyə,
Yatmışam, yuxuda qalmışam nisyə.
Dərddən canımı da almışam nisyə,
Mən daha hər şeyi nisyə alıram!

## DÜNYA SƏNİN OLMAYACAQ

O boyda Nuha qıyıbsa,
Dünya sənin olmayacaq.
Süleymana qalmayıbsa,
Dünya sənin olmayacaq.

Bax bu cızı cızmağıma,
Baxma şeir yazmağıma.
Mən azmışam azmağıma,
Dünya sənin olmayacaq.

Balığı sudan aldırma,
O quşa qanad saldırma.
Özünü göyə qaldırma,
Dünya sənin olmayacaq.

İstəyirsən, elə yaşa,
İstəyirsən, belə yaşa.
Yaşayırsan, hələ yaşa,
Dünya sənin olmayacaq.

Gəlib-gəlib ən sonunda,
Görünəcək ağ donunda.
Heç mənim də, heç onun da,
Dünya sənin olmayacaq.

Uzaqdakı səsdən eşit,
Pıçıldayım, pəsdən eşit.
Altdan dinlə, üstdən eşit,
Dünya sənin olmayacaq.

Qarşıdadır ölüm butan,
Tutduğuna ölüb, utan.
Dünyanı dörd əlli tutan,
Dünya sənin olmayacaq!

## TAPSAM, TANIYARAM GÜLÜNDƏN ONU

Tanrım, işıqsızdır, işıqlandırım,
Gəlim, işığından saçım qapını.
Saçı elə-belə saçlamaq olmur,
Saç verim, saçlasın, saçım qapını.

Üstünə, başına bir əl gəzdirim,
Beş-on günlüyünə səni bezdirim.
Alım dimdiyimə, göydə süzdürüm,
Bəlkə, bir quş olum, uçum qapını.

Qucaq aç, quluna qolunu tanıt,
Həm də əl-qoluna qulunu tanıt.
Məndən özünədək yolunu tanıt,
Qoy açım üzünə, qaçım qapını.

Tapsam, tanıyaram gülündən onu,
Sevmişəm dünyaya gələndən onu.
Gəzirəm ağlayıb, güləndən onu,
Qapını tapmıram, açım qapını.

Sahibəm, istərdim, istinə gəlim,
İstinə gəlmədim, tüstünə gəlim.
Suçluykən suçumun üstünə gəlim,
Üstəlik suçlasın suçum qapını.

## DODAQLAR ALTINDA BİR ŞAİR ÖLÜR

Çiçək-çiçək, yarpaq-yarpaq sökülür ,
Budaqlar altında bir şair ölür.
Bu dağlar üstündə qartal qıy vurur,
Bu dağlar altında bir şair ölür.

Yayılıb dörd yana bir səslə düşüb,
Bu səs nə düşmənə, nə dosta düşüb .
Dəyib bir-birinə, üst-üstə düşüb,
Dodaqlar altında bir şair ölür.

Bir otaq soyuqdu, bir otaq isti,
Udduğu da nədir, bir otaq tüstü.
Üstünə gəldikcə bir otaq üstü
Otaqlar altında bir şair ölür.

Bir quru canıdı, bir quru bəxti,
Belə görəcəksən, gəlsən nə vaxtı.
Yatağı üst-üstə, yataq-yataqdı,
Yataqlar altında bir şair ölür.

Tonunda qalacaq səsinin tonu,
İlkitək olacaq ömrünün sonu,
Heç kəs görməyəcək təkcə bir bunu ,
Qoltuqlar altında bir şair ölür.

## YOXSA, ON BEŞ YAŞLI QIZDIRMI ÖLÜM?

Ölüm zoğalıdır, ya ölüm tutu,
Ya da fındıqdırmı, qozdurmu ölüm?
Ölüm ağacıdır, ya ölüm otu,
Ya da and çörəyi, duzdurmu ölüm?

Arandan arandır, dağdan bir az dağ,
Səhradan səhradır, bağdan bir az bağ.
Özünün boyası ağdan bir az ağ,
Gözü qara, üzü bozdurmu ölüm?

Göz yumur gecəsi, uyuyur danı,
Ancaq ki özünü boyayır qanı.
Adam buza dönür, soyuyur canı,
Görəsən, özü də buzdurmu ölüm?

Toz olan tozlanar, tozda sürünər,
Üstü-başı azca toza bürünər.
Toz olsa görərəm, gözə görünər,
Görən, tozdan çıxan tozdurmu ölüm?

Özü kəsdiyini özü də asır,
Sahibdən danışmır, hələ ki susur.
Nə gedən var onu, bağrına basır,
Yoxsa, on beş yaşlı qızdırmı ölüm?

## GÜNAYDIN ƏVVƏLƏ, SALAM AXIRA

Mənə lazım deyil çay daşqınlığı,
Çay daşmayan yerdə daşam mən gərək.
Suyun özünündür su coşqunluğu,
Sutək yox, özümtək coşam mən gərək.

Bu bir il uzunu hər gün sən gəlib,
Say, saçına bir gör neçə dən gəlib?
Sonda çaşmamağım üçün mən gəlib,
Elə bəribaşdan çaşam mən gərək.

Onsuz ola bilməz mən darıxmayam,
Tək qalam, təklikdən heç də qorxmayam.
Özümü heç yerə tək buraxmayam,
Özümü özümə qoşam mən gərək.

Mənsiz məni mənə qoşan kimdir ki?
Gəlib məndə mənə çaşan kimdir ki?
Məni məndən başqa aşan kimdir ki?
Çalışıb özümü aşam mən gərək.

Özüm ilkə gedəm, balam axıra,
Günaydın əvvələ, salam axıra.
Sahib Camal kimi qalam axıra,
Bəyim mən, Xanım mən, Paşam mən gərək!

## SAHİBƏ DÖNƏLİ ÜZÜM

Səndən, dünya, su kimi yox,
Söz kimi axıb gedirəm.
Mənsiz günün olacaqmı?
Gününü yaxıb gedirəm.

İncimәsin dәdә yağış,
Götürmәsin zәdә yağış.
Nә buludam, nә dә yağış,
Şimşәyәm, çaxıb gedirәm.

Göyünә çәk ürәyimi,
Yerinә әk ürәyimi.
Çıxarıb tәk ürәyimi,
Sinәnә taxıb gedirәm.

Bir öl sәndә, bir ol mәndә,
Könlümә dol, gәl dol mәndә.
Hamı kimi bir yol mәn dә,
Aynandan baxıb gedirәm.

Ağlaşırdıq , gülüşürdük,
Əl-ayağa ilişirdik.
İndiyәdәk gülәşirdik,
Mәn sәni yıxıb gedirәm.

Quruyub bəxtim qurtarıb,
Çürüyüb taxtım qurtarıb.
Qonaqlıq vaxtım qurtarıb,
Yola sal, çıxıb gedirəm.

Sahibə dönəli üzüm,
Yaşdır, yaş doludur gözüm .
Ağlayan olmasın, özüm,
Gözümü sıxıb gedirəm.



## ƏN YAXŞI QONAQÇI

Bax bozaran bozardı, saralan da saraldı,
Bənövşə, nərgiz yazla, qar da qışla ölçülür.
Adamın adama da hər nə qədər yanmağı,
Ürəkdə dərd-kədərlə, gözdə yaşla ölçülür.

Öyrənib o buludu əlçim-əlçim bilirəm,
Ürəyimi o qıza gedən elçim bilirəm.
Öz könlümü, gözümü mən öz ölçüm bilirəm,
Ölçmüşəm yeri otla, göy də quşla ölçülür.

Almadır, heyva-nardır bağın ölçü vahidi,
Şor ola bilməz, yağdır yağın ölçü vahidi.
Ayrı nə ola bilər dağın ölçü vahidi?
Dağ bərəylə, qayayla, bir də daşla ölçülür.

O qədər ölüm var ki ayaq- baş arasında,
Gizlənsən, tapar səni iki daş arasında.
Bir yaşayış da yoxdur gözlə qaş arasında,
Ölüm onda bəs niyə gözlə, qaşla ölçülür?

Bəlkə, Tanrı bir quru sözüdür bu dünyanın,
Yer astarı, göy də ki üzüdür bu dünyanın.
Ən yaxşı qonaqçı da özüdür bu dünyanın,
Çünki qonaq, ay Sahib, onda yaşla ölçülür!

## YAŞAYIRMI SAHİB SƏNDƏ?

Şair var ki yaşadığı,
Bilmirsən nədir, yaşayır?
Şair də var, adi də yox,
Adidən adi yaşayır!

Baxır göyə yer Hadidə,
Axır Araz, Kür Hadidə.
Yüz ildir ki bir Hadidə,
Gör neçə Hadi yaşayır?

Çox olub uzaqda, gendə,
Bəlkə ölüb, itib çəndə.
Yaşayırmı Sahib səndə?
Ürəyim dedi, yaşayır!

**RAMIZƏ DÖNƏCƏK ÇƏN GƏDƏBƏYDƏ**

*(Qəfil eşitdiyim xəbər-İstedadlı şair dostum və yaxınım Ramiz Kərəmin ölüm xəbəri məni sarsıtdı*! )

Tapa bilməyəndə mən bircə yaxşı,
Ramiz, sən hamını söylədin, Ramiz.
Təzəcə gedirdim mən mənə sarı,
Ramiz, məndən məni əylədin, Ramiz!

Bu bir doğrudurmu, ya ki bir yuxu?!
Verim bu şeiri, al, özün oxu!
Axı sən vəfasız deyildin, axı,
Ramiz, niyə belə eylədin, Ramiz?!

Ramizə dönəcək çən Gədəbəydə,
Bitə, ya bitməyə dən Gədəbəydə.
Sahibi təklədin sən Gədəbəydə,
Ramiz, heç bilirsən, neylədin, Ramiz?!

## QIRX BEŞİN ÜSTÜNDƏ GƏLƏCƏK BU İL

İlə, aya görə, günə görə də,
Qırx beşin üstündə gələcək bu il.
Sənə görə, elə mənə görə də,
Qırx beşin üstündə gələcək bu il.

Ocaqda tüstünə yaxınlaşacaq,
Qucaqda istinə yaxınlaşacaq.
Altmışın üstünə yaxınlaşacaq,
Qırx beşin üstündə gələcək bu il.

Asan eyləyəcək çətin üstləri,
Xoş qoxu verəcək tütün üstləri,
Atacaq üstündən bütün üstləri,
Qırx beşin üstündə gələcək bu il.

Qırx beşdə yanacaq gecəmin şamı,
Qırx beşə dönəcək ağzımın tamı.
Qırx beş sevdasına düşəcək hamı,
Qırx beşin üstündə gələcək bu il.

Əlli saralacaq, altmış solacaq,
Yetmiş boşalacaq, səksən dolacaq.
Doxsan da bölünüb iki olacaq,
Qırx beşin üstündə gələcək bu il!

## GÖY ÖZÜMÜ, YAŞIL SƏNİ GÖRÜRƏM

Bax o göydə quş qalmayıb bir dənə,
Ey ürəyim, quş ol, səni görürəm.
Hansı fəsil olur-olsun: yaz, ya güz,
Yay ol səni, qış ol, səni görürəm.

Sevincdən də, kədərdən də bol idim,
Sevgi adlı şaha axı qul idim?
Gözümdəsən kövrələndə buludum,
Dol yenidən, boşal, səni görürəm.

Qoşma səsi, qəzəl səsi hardansa,
Sevilən bir gözəl səsi hardansa,
Qulağıma xəzəl səsi hardansa,
Gəlir xışıl-xışıl, səni görürəm.

Dünya olur qara quyu hər gecə,
Bu qaraya uzan, uyu hər gecə.
Yuxuda da gecə boyu hər gecə,
Yatır mışıl-mışıl, səni görürəm.

Yaşayırıq guyaların içində,
Sıxılırıq qayaların içində.
Çox sevdiyim boyaların içində,
Göy özümü, yaşıl səni görürəm!

## GÖZ YAŞI GÖZÜNDƏ TUMURCUQLADI

Sayı onun altı dördə çatmamış,
Bir-iki şairdən biri də öldü.
Göyə qeyb olmamış, yerə batmamış,
Özü ilə birgə yeri də öldü.

Qalxdı yeddisinə, endi üçünə,
Köçünü köçlərin qatdı köçünə.
Çıxarmadı çölə, saldı içinə,
Dərdini kiridə-kiridə öldü.

Canı azmayacaq şeirlərində,
Ruhu sızmayacaq şeirlərində,
Daha yazmayacaq şeirlərində,
Hürü də, Qılman da, Pəri də öldü.

Ayın cığırında, ilin yolunda,
Ayağın izində, əlin yolunda,
Elə ömrü boyu elin yolunda,
Özünü çürüdə-çürüdə öldü.

Doğrusuna baxdı, oğru çatladı,
Götürə bilmədi, bağrı çatladı.
Sinəsində neçə ağrı çatladı,
İrəlidə durdu, geridə öldü.

Sevincin Əlisi, dərdin Vəlisi,
Onsuz da, olmuşdu ölüm dəlisi,
Dünəndən ölmüşdü, bu gün ölüsü,
Sümükdə yaşadı, dəridə öldü.

Bir sevinci vardı, onu unudan,
Ancaq dərdi oldu onu tanıdan.
Diri doğuldu da, diri anadan,
Diri yaşadı da, diri də öldü.

Dərdin pöhrə dadı, tumurcuq dadı,
Elə pöhrə dadır, tumurcuq dadır.
Göz yaşı gözündə tumurcuqladı,
Alnında alnının təri də öldü.

Yaxşı ki ruhunu boğmadı qəbri,
Gördü ki yad deyil, doğmadır qəbri.
Neylədi, canına sığmadı qəbri,
Gəldi də qəbrindən bəridə öldü!

## QOYUNU QƏSSAB OXUYUR

Baxırsan ocaq üstündə,
Yay qazan, qış qab oxuyur.
Qazan çömçəni oynadır,
Qaşığı boşqab oxuyur.

Bir ümidi qalıb ələ,
Hardan düşüb, salıb ələ.
Ürəyimi alıb ələ,
Elə bil kitab oxuyur.

Dünyamı, zamanmı çönüb?
Çıraqmı, ocaqmı sönüb?
Hesab öyrətdiyim dönüb,
Gör mənə hesab oxuyur.

Olunda, ölündə durub,
Ağlının çölündə durub.
Bıçağı əlində durub,
Qoyunu qəssab oxuyur.

Başladınmı toxumağa?
Toxuyub keç çoxum ağa.
Mənim könlüm oxumağa,
Gətirib də tab oxuyur.

## DAĞ PENCƏKLİ KİŞİ , DAĞ DONLU QADIN

Göy-yaşıl geyinər , sarı da geyər ,
Qırmızı bağlayar bağ donlu qadın .
Sevincə ağlayar , ancaq sevincə ,
Ağla , kəsmə , ağla , ağ donlu qadın .

Çatlahaçatladı , yoxsa çatdımı ?
Ürəyindəkinə bu çat çatdımı ?
Sinəndə ürəyin salamatdımı ?
Sevgisi , istəyi sağ donlu qadın .

Dediyiniz açıq , sözünüz aydın ,
Yansın ocağınız , közünüz aydın ,
Üzünüz ağ olsun , gözünüz aydın ,
Dağ pencəkli kişi , dağ donlu qadın .

## ƏYİB ÖLDÜRDÜLƏR DƏMİRAĞACI

*(Bir zamanlar meşələrimizdə Dəmirağac adlı ağaca rast gəlinirdi indi isə ... )*

Baltalı , baltasız cumub üstünə ,
Döyüb öldürdülər Dəmirağacı .
Gövdə demədilər , kök demədilər ,
Söyüb öldürdülər Dəmirağacı .

Döyüb ölümünə onu döyənlər ,
Söyüb olumuna onu söyənlər .
Əliylə , qoluyla ağac yeyənlər ,
Yeyib öldürdülər Dəmirağacı .

Yalana çevrildi neçə gerçəklər ,
Soldu çevrəsində açan çiçəklər .
Ağıza saldılar ağzıgöyçəklər ,
Öyüb öldürdülər Dəmirağacı .

Qalmadı bir dənə quşuna sağlıq ,
Gəlmədi özünün xoşuna sağlıq ,
" Palıd ağacının başına sağlıq "
-Deyib öldürdülər Dəmirağacı .

Sonuna gələrdi , ilkə ölməzdi ,
Bilmədi qurduğu ölkə ölməzdi .
Ortadan sınardı , bəlkə , ölməzdi ,
Əyib öldürdülər Dəmirağacı .

## DÜŞMƏSIN BIR PAPAQ, AD AYAQ ALTDA

Gətir, nə dərdin var yerləşdirərəm,
Var mənim sinəmdə bir damın canı.
Dərdini dərdimlə birləşdirərəm,
Daha da canlanar dərdimin canı.

O gözdə olanda o baxışın da,
Sənin ürəyində pisin, yaxşın da.
Buluddan çıxmayan qar- yağışın da,
Bir yerə toplanır, birdir min canı.

Düşməsin bir papaq, ad ayaq altda,
Eyləyim dağ-daşı şad ayaq altda.
Çıxarım səsimi yad ayaq altda,
Qoymayın tapdansın yurdumun canı.

Dərbəndə coşacaq Qarabağdan da,
Təbrizə daşacaq Qarabağdan da.
Göyçəyə aşacaq Qarabağdan da,
Bir gün də sağ olsun Ordumun canı.

Bir nərgiz, bənövşə ləçəyindədir,
Nə qaya, hər zərif çiçəyindədir.
Böyüyündən keçib kiçiyindədir,
Göytürkdən ulayan qurdumun canı!

## TƏZYİQ EDİR BAĞA ÇİÇƏK

Heç nədən yox, bir sevgidən,
Olur ürəyin təzyiqi.
Bu sevgidə kaş olmasın,
Bizə fələyin təzyiqi.

Dağı, daşı dumansızdır,
Ömrü, günü zamansızdır.
Aman Allah, amansızdır,
Aman, fələyin təzyiqi!

Sola dəyir, sağa dəyir,
Neçə-neçə bağa dəyir.
Qalxır, qalxır dağa dəyir,
Düşür küləyin təzyiqi.

Göy buluda təzyiq edir,
Yağışını tökür yerə.
Qardaşına arxa durur,
Duman gəlib çökür yerə.

Ağız açan yaxasıyla,
Məstedici yuxusuyla,
İysiylə, qoxusuyla,
Təzyiq edir bağa çiçək.
Təzyiq edir qırmızıya,
Sarıya, həm ağa çiçək.

Canımda can təzyiqinə gəzirəm,
Qanımda qan təzyiqinə üzürəm.
Təzyiqləri başıma toplayıb da,
Ayrılığın təzyiqinə dözürəm!

## GƏZİRƏM DÜNYANI QARŞIMA ÇIXMIR

Aldığı seçimdir hər ikisinin,
Biri qan, o biri qana qan alır.
Nə alırsa, onu gecikdirmir də,
Alır elə onu, ana an alır.

Daş atıram ona, daşıma çıxmır,
Yaxşı ki acığım başıma çıxmır.
Gəzirəm dünyanı, qarşıma çıxmır,
Məni görən kimi, yana yan alır.

Alma, armud, heyva, var nar ağacı,
Onların hamısı bir bar ağacı.
Ağaclar içində bir dar ağacı,
Özü canlı olmur, ancaq can alır.

## YAZIRAM ŞEİRİMİ QANA BATIRIB

Üstü çiçəklərin Vətən, ay Vətən,
Torpağının altı don şəhidinə.
Canımda ağrı var ilk şəhidindən,
Ürəyim ağrıyır son şəhidinə.

Günü olmayanın günü gətirib,
Ayın dəyişməyib, ilin düz ildir.
Daş-daş, qaya-qaya səni götürüb,
Başıma çırpırlar min üç yüz ildir.

Yan da, öləzi də, boğul tüstünə,
Qoyma, ocağında tüstü qurusun.
Vətən, öpüb səni gözüm üstünə,
Qoymasam, gözümün üstü qurusun.

Toplayıb hər yandan səni bir yerə,
Sonra da üstündə tir-tir əsəcəm.
Bir qoyun kəsəcək adına hərə,
Mən də bu şerimi qurban kəsəcəm.

Başımda yel əsir, könlümdə sazaq,
Yatır, ürəyimi qəmi yatırıb,
Kağızdan, qələmdən düşmüşəm uzaq,
Yazıram şeirimi, qana batırıb!

Varmı bu dünyanın elə qadını?
Olsa, inanmıram, ondan doyaram.
Bir oğlumuz olsa, onun adını,
Ya Qazi, ya da ki Şəhid qoyaram.

Gəlinlik adına don məktub olsun,
Dərdin qollusuna, budaqlısına.
Qoy mənim bu şeirim son məktub olsun,
Sonuncu şəhidin adaqlısına.

Dərbənddən Təbrizə hər bir dağ üstdə,
Eyləyəcəm nahar, şam qələbəni.
Borçalı, İrəvan, Qarabağ üstdə,
Vətən, gözləyirəm tam qələbəni!

## SƏN EY İMPERİYA, SƏN EY RUSİYA

Dünyaya elə bir gileyim yoxdur,
Mən özüm-özümə gileylənirəm.
Elə bil quzeydə güneyim yoxdur,
Quzeydən güneyə güneylənirəm.

Salma keyliyinə, key imperiya,
Eşit, keyliyini açacaq bu səs.
Səni səsləyirəm, ey imperiya,
Rus üzü görməkdən bezmədinmi bəs?

Gəlmə, torpağıma qoymuram səni,
Əgər qoymuramsa niyə gəlirsən?
Yadsan mənə, doğmam saymıram səni,
Sənə yad deyənə yiyə gəlirsən?

Mən gəlmə deyirəm, nə yarıxırsan,
Üzün ətdən deyil, daşdandır onda.
Əgər gəlirsənsə, məndən qorxursan,
Sinəndə ürəyin quşdandır onda.

Oxşayır ayı, həm qurd yiyəsinə,
Bu necə gəlişdir, necə gəlirsən?
Deməmiş bu yurdun yurd yiyəsinə,
Sən niyə yurduma gecə gəlirsən?

Ayıb bil özünə, göyümü az pus,
Nə çökübsən yerə çən çökən kimi?
Gələndə yurduma gəlibsən, ey rus,
Baxıram tarixə qan tökən kimi.

Sal uzaq illəri yadına özün,
O qədər ağlını azıbsan axı?
Tarixdə ilk dəfə adına özün ,
"Bərdə faciəsi" yazıbsan axı!

Mən türk olum, russan, sən də rus ol da,
Mən ki tanıyıram tarixdən səni.
İndi də gəlibsən başqa bir rolda,
Kimi aldatmağa özünü, məni?

Ağlını azdırma, pis olar günün,
Ağlını başına gətir də, çıx get.
Sənin artığındır, bu haylar sənin,
Ey rus, artığını götür də, çıx get.

Nə olsun danışan dildir, ağızdır,
Hələ qolumda güc, canımda can var.
Mənə göndərdiyin qara kağızdır,
"26 Fevral"! "20 Yanvar"!

Pyotr and verdi, Lenin and içdi,
Hər ikisi haqq dedi yağılığına.
Həmişə könlündən ağalıq keçdi,
Bilmədin ki, qulsan ağalığına.

Mən özüm olacam özümə ağa,
Deyimmi get hələ neçə kənddən çıx?
Nə üçün gəlibsən, de Qarabağa?
Çəkil Qarabağdan, get, Dərbənddən çıx.

Tutdun gözümüzü tüstüyə, çənə,
Öldürdün, ölmədik neçə köçdə biz.
Bu bir dəfə oldu, gərək ki, sənə,
Tarixdən dərs keçdik doxsan üçdə biz.

İllərə basırdıq söyüşümüzü,
Açıldı daha da, üzlər solmadı.
Biz elə qurduq ki, döyüşümüzü,
Bizim bu döyüşdə bir qan olmadı.

Bir yol altdan gedir, bax bir yol üstdən,
Dön, get, gəlmə, bir də yanılma yolu.
İllərdir yad çəkən iki qol üstdən,
İndi mən çəkirəm üçüncü qolu.

Sinirə bilmirsən, acığında ol,
Çox olsa, neylərdin, bu bir yol oldu?
Son iki yüz ildə bu çəkdiyim qol.
Azadlıq adına bir ilk qol oldu.

Bəndələrdən tutmuş Tanrıya qədər,
Millətim sözünü kimə demədi?
Saxlama bu sonu sonraya qədər,
Sonu pis olacaq, demə, demədi.

Sənin ağalığın devrilə bilər,
Sən ey imperiya, sən ey Rusiya.
Vətənim Turana çevrilə bilər ,
Ayaq üstə dursa, Orta Asiya!

Kəsilməyib işıq, hələ görünür,
Burda kəs, işimə bəsdir, az qarış.
Görünür, dünyanın belə görünür,
Sən savaş üzüsən, mən də ki barış!

## SAHİBƏM, OLDAN OL İDİM

Yolu dəyişik salıbsan,
Çıx yoldan, yolumu kəsən.
Sındırmamış qanadını,
Çıx qoldan, qolumu kəsən.

Say özünü, nə qədərsən,
Mən saysam, de, nə edərsən?
Çaşıb solu sağ gedərsən,
Çıx soldan, solumu kəsən.

Çatlayır içim acıqdan,
Gəlmə, çıx get, keç uzaqdan.
Qorunurdum qar-sazaqdan,
Çıx koldan, kolumu kəsən.

Əgər olsan öz başına
Daş atardın göy quşuna.
Nə gəzirsən boş-boşuna?
Doludan dolumu kəsən.

Özüm özümə yol idim,
Özüm çəkdiyim qol idim.
Sahibəm, oldan ol idim,
Öl-oldan olumu kəsən.

## GƏDƏBƏYDƏN KƏLBƏCƏRƏ GEDİRƏM

Dağ başında Laçınım var, Şuşam var,
Kürdəmirə, nə Ucara gedirəm!
Bayrağımı o gün sancdım Ağdama,
İndi isə Kəlbəcərə gedirəm!

Vurmamışdım əllərimi qılınca,
Saxlamışdım bu gün üçün yalınca.
Çoxdan gedən ürəyimin dalınca,
Ayaqlarım nə bacara gedirəm!

Necə yansın bir yanğı, köz görməyən,
Nə eşitsin qulağı söz görməyən,
Qalib ordum hələ heç göz görməyən,
Yaradıbdır çox macəra, gedirəm!

Könlüm yuxa, yeri gəlsə, dəmirəm,
Söz vermişdim, sözümü də yemirəm.
Yolun altı, yolun üstü demirəm,
Dağı-daşı cıra-cıra gedirəm!

Sahib Camal at belində, atladır,
Qurd qoyunla, qoyun-quzu otladır.
Ulu Tanrım, bəlkə, goru çatladı,
Xəbər ver, de Şah Qacara, gedirəm!
Gədəbəydən Kəlbəcərə gedirəm!

## AY SAHIB, ATLANMIR DAHA SİNƏN DƏ

Ağlamaqla da yox, göz yaşıyla da,
Deyəndə dərdini gülüb deyəsən!
Heç də içdə boğub daxlamayasan,
Nə var ürəyinə gəlib deyəsən!

Vətəndən Vətənə köçə ki Vətən,
Ola Təbrizdə bir küçə ki Vətən,
Bütövə dönməyib neçə ki Vətən,
Hər şeyi ikiyə bölüb deyəsən!

Meydan sulayırdı şaha sinəndə,
Təslim olmayırdı aha sinəndə,
Ay Sahib, atlanmır daha sinən də,
Ürəyinin atı ölüb, deyəsən!

## SAHİB, SEVGİ OLMAZ QARIN DOLUSU

(Təcnis)

Ey bulud, o göydə nə su gəzirsən?
Yağışın dolu su, qarın dolu su!
Çəkibsən qoynuna, səndə deyilmi?
Yağışın dolusu, qarın dolusu!

Fərqinə varmadan göz-əl, sevırəm,
Hər nəyi sevirəm, gözəl sevirəm,
Dünya, səndə nə var Gözəl sevirəm,
Sənin qız-gəlinin, qarın dolusu!

Bölünmür doğmaya, yada ki ürək
Sığına yaddaşa, yada ki ürək,
Göz dolusu olar, ya da ki ürək,
Sahib, sevgi olmaz qarın dolusu!



## ŞAGİRDLƏRİM-DƏLİLƏRİM

Deməsəm:
"Daldan atılan daş topuğa dəyər"
Kimi olar.
Kiminin sevinci,
kimininsə qəmi olar.
Desəm, yeridir.
Hələ ruhum ölməyib,
ruhum diridir.
Arada qışım olsa da,
qarım yağsa da
o qış keçdi,
o qar əridi.
Şükür yenə
açdı yazım.
Sinəm üstə
gəldi sazım.
Aldım onu,
çaldım onu.
Səsləndi.
Doqquz teli
sanki bir simdir.
Mənə elə gəldi ki,
o mənim həm kabinetim,
həm də kürsümdür.

Çünki
mənki nə kabinet,
nə kürsü sevdim.
Ancaq məktəbi
və keçdiyim dərsi sevdim.
Məktəbə, dərsə qaçdım.
Sinifdə meydan açdım.
Sinif oldu Çənlibel,
mən də Koroğlusu...
Ancaq
qılınc yerinə
qələm çaldım.
Sual verdim,
cavab aldım.
Şagirdlərim oldu dəlilərim.
Yazdılar, oxudular.
Yazdıqca, oxuduqca
könlümə sevinc toxudular.
Yan-yana düzüldü
yaxşılarım, əlalarım.
Gün gəldi,
orta məktəbi bitirdilər.
Yerlərini özlərindən sonra
gələnlərə ötürdülər.
Mənim də sevgimə büründülər.
Getdilər,
dünyanın hər yerindən göründülər!

## SATILAN SEVGİNİN BUTASI PULDUR

O varlı bilirmi, puldan yaranıb?
Bilirmi, anası-atası puldur?
Ayrı nə günahı, nə təqsiri var,
Yoxsulun ən böyük xətası puldur!

Sağla oğurlanan, solla alınan,
Nə bilim , yüz əyri yolla alınan,
Paraya aldanan, pulla alınan,
Satılan sevginin butası puldur!

Sahib, yaşayacaq gün ölməyibsə,
O dağ dağ ha deyil, çən gəlməyibsə,
Əgər doğru yola yönəlməyibsə,
O pul əzəl-axır batası puldur!

**BAXIN, BU, XOCALIDIR!**

Göy bir, Yer bir yanından,
Araz, Kür bir yanından,
Yurdun hər bir yanından,
Axan su Xocalıdır!
Baxın, bu, Xocalıdır!

Çatırmı sənə səndə?
Dərd var hər dənəsində.
Ürəyi sinəsində,
Ağrılı-acılıdır,
Baxın, bu, Xocalıdır!

Alnının təri qara,
Görünür yeri qara,
Biri boz, biri qara,
Qarışıq gecəlidir,
Baxın, bu, Xocalıdır!

Dilinin duasıyla,
Üzünün həyasıyla.
Çiçəyi, qayasıyla,
Qardaşlı-bacılıdır,
Baxın, bu, Xocalıdır!

Yağı alan evləri,
Çoxu talan evləri,
Ağlar qalan evləri,
Qapılı-bacalıdır,
Baxın, bu, Xocalıdır!

Quşunu ha qılıqla,
Öcdür Göydə Xaliqlə...
Lap uzaq ayrılıqla,
Dörd yandan quculudur,
Baxın, bu, Xocalıdır!

Yaşamım bilib onu,
Ölmərəm, ölüb onu,
Bax tutan gəlib onu,
Bir Tanrı əcəlidir,
Baxın, bu, Xocalıdır!

Bulağı başı daşlı,
Göy gözlü, yaşıl qaşlı.
Cavankən olub yaşlı,
Qarılı, qocalıdır,
Baxın, bu, Xocalıdır!

Çoşub-çağlamaq adlı,
Sinə dağlamaq adlı,
Mənim ağlamaq adlı,
Gücümə güc elədi,
Baxın, bu, Xocalıdır!

Qara bağlı bağları,
Çoxdan çoxdur ağları.
Altdan, üstdən dağları,
Alçaqlı, ucalıdır,
Baxın, bu, Xocalıdır!

Özüm özümə öcəm,
Özümə görə gücəm.
Bu günədək hər gecəm,
Onunla gecələdi,
Baxın, bu, Xocalıdır!

## KƏND

Gəlib qayasında, daşında durub
Allah özü sevib, vallah, bu kəndi.
Götürüb dağların başında qurub,
Görkəminə görə Allah bu kəndi.

Özü tək qaralır axşamın dərdi,
Gün kimi ağarır səhərdə dərdlər.
Sevirsən bu kənddə bir olur dördü,
Sevirsən sevilmir şəhərdə dərdlər!

Bir ayaq altında, bir baş üstündə,
Mən elə bu kənddə yaşayacağam!
Oturub bu kənddə bir daş üstündə,
Dünyanın dərdini daşıyacağam!

Ürəyində qırıq sim gedəcəksə,
O şəhər, o da o, getsin kef onun!
Yolu açıq olsun, kim gedəcəksə,
Etməsin, edərsə, onsuz, səhv onun!

Düşüb heç bir dərdə axtarmayın da,
Başımın dumanı, çəni bu kənddə.
Ayrı heç bir yerdə axtarmayın da,
Axtarın həmişə məni bu kənddə!

Nə yağış yağacaq, nə qar çökəcək,
Buludu doluyla dolu adıma.
Dünyanın dərdini nə var, çəkəcək,
Allahın dərdini çəkən adama...

Özü çəkə bilər, gəl dərdindən keç,
Varsa, sevincindən sökən tapılsın!
Gəzəndə bu kənddə heç olmasa, heç
Dünyanın dərdini çəkən tapılsın!

İlkindən düşəndə, sona qalanda,
Hamısı bir yerdə ömrüm-günümdür!
Elə fərqi yoxdur, ona qalanda,
Şəhər də mənimdir, kənd də mənimdir!

Açılıb yönündə sinə bu kəndin,
Bu ki öz suyumdan, havamdan qalıb.
Başına dolanım yenə bu kəndin,
Çünki bu kənd mənə babamdan qalıb!

## TORPAĞININ UCUNDAN

Axşamın-səhərin yox,
Dünya, sənə heç gün yox,
Gündəlik gəlib-gedən
Qonağının ucundan!
Gözlərində yaş da yox,
Bəs hardan gəlib düşüb?
Bir damla yaş asılıb
Yanağının ucundan!

Hələ qocalmayıbsan,
Hələ qarımayıbsan,
Cavan qalan canından
Yaxşı yarımayıbsan!
Səhər-səhər duranda,
Deyən ,daramayıbsan,
Saçın dağılıb düşüb
Papağının ucundan!

Boğulur öz suyuna,
O göldə sona ölür,
O su da özlüyündə,
Donduqca dona ölür!
Bir yol dilə gətirib,
Demirlər ona ölür,
O çöl-çəmən saralıb
Yarpağının ucundan!

İsti vurdu içimə,
Soyuq dəydi çölümə,
Əl boyda bir daş verdin
Gələn günü gəlimə.
Basdırarlar oraya,
Ölən günü ölümə,
Verərsən bircə qarış
Torpağının ucundan!

## KİM AYRI BİR ADA...

Kim ayrı bir ada qapı döyəcək?
Dünyanın adı var, dünya adına ,
Yadında qalanı özü deyəcək,
Yadından çıxanı salım yadına.

Söz verən, dilinə söz verə bilməz,
Götürə özünə ürək Allahı.
Neyləsən Allahı göz görə bilməz,
Könlünlə görəsən gərək Allahı!

Kölgəsi o üzdə, özü bu üzdə,
Nə özündən gedir, nə özündədir.
Dünyanın görünən üzü bu üzdə,
Görünməyən üzü o üzündədir.

Tanımırıq onu, tanıyır bizi,
Ancaq tanıyırıq biz onu guya.
Qardaşla, bacıyla yanıyır bizi,
Qardaşı, bacısı olmayan dünya.

İlki kim qazanıb, sonu kim doğub?
İlk üzü sevincdir, son üzü qəmdir.
Onu kim qazanıb, onu kim doğub?
Kim deyər, atası, anası kimdir?

Günəşin altında gün də görmürəm,
Kəsib işığını, vallah, dünyanın.
Gecənin altında mən də görmürəm,
Qaranlıq üzüdür Allah dünyanın!

## YENİDƏN QURULACAĞAM

Çoxdan sökülmüşəm, dağım-dağımam,
Səninlə yenidən qurulacağam.
Sən nə dəniz suyu, bulaq suyusan,
Səninlə yenidən durulacağam.

Silib gözlərimdən nəmi gələcəm,
Sevinci adlayıb, qəmi gələcəm.
Düz sən olan yerə kimi gələcəm,
Demə, bu yollarda yorulacağam.

Bu sənə döndüyüm dönəmdən vursan,
Mənliyim sənindir, mənəmdən vursan.
Sənə çatan yerdə sinəmdən vursan,
Bir onu bilirəm qırılacağam.

**VAĞZAL**

Bu dünyada şəhərlər çox,
Şəhərlərdə vağzallar.
Şəhərlər də adamlarındır,
Vağzallar da.
Adamlarsız neylərdi?
Axşamlar da,
Səhərlər də
Vağzallar.
Var ayrıca avtobus,
Qatar,
Uçaq vağzalı.
Ancaq yoxdur,
Böyüklərdən ayrı,
Ayrıca uşaq vağzalı.
Olsa, yaxşıydı.
Minib gedərdilər,
Bu şəhərdən o şəhərə.
Bu səhərdən o səhərə.
Uşaqlar ayrı,
Böyüklər ayrı.
Daşınardı,
Bu vağzaldan
O vağzala
Yüklər ayrı.
Eybi yox belə olsun,
Olur, qoy hələ olsun.

Bir gedək, bir də gələk.
Gərək bunu da bilək.
Vağzaldan vağzala
Qaça-qaça,
Şəhərdən şəhərə
Uça-uça.
Ömrümüzün köçündəyik.
Dünya özü bir vağzaldır-
Özü də ən böyük vağzal.
Hamımız bir yerdə
Bu vağzalın içindəyik.
Bu bizim beşinci, nə
Onuncu vağzalımız.
Dünya həm birinci, həm
Sonuncu vağzalımız.
Mənim bu vağzallara
Ürəyimdə qılıq var.
Bu vağzallara istək
Hamıdan bambaşqadır.
Məndə bir ayrılıq var.
Mənim ən ilk vağzalım
İşıqlıya gələn gün
Həm də ağlaya-ağlaya,
Doğma baba yurdumda
Torpağa düşdüyüm yer!
Ən sonuncu vağzalım,
Şirin xəyallar qurub,
Gözaltı bir göz vurub,

Əhd-peyman bağlaya-bağlaya
O qıza ilişdiyim yer!
Üzü qara olmasın,
Ağ olsun vağzallarım!
Məni yaşadırlarsa,
Sağ olsun vağzallarım!

## YUXUMU VERİM QUŞA

Yuxum gecədə azıb,
Durum, yuxumu gəzim!
Gecəni gəzməyimlə
Yorum, yuxumu gəzim!

Gözüm yuxu dözümü,
Yuxu tökən gözümü.
Yatmaq üçün özümü,
Qurum, yuxumu gəzim!

Düşməyim dağa-daşa,
Yuxumu verim quşa.
Belə gecəni başa,
Vurum, yuxumu gəzim!



## PUL

Cibimin gözündə əl altındasan,
Yalan ha deyilsən ,sən gerçəksən pul!
Gücün elə gücdür qan barışdırır,
Sən ki ,ağsaqqalsan ,ağbirçəksən pul.

Zirvəyə çıxansan, dağa qalxansan,
Nə geri çəkilən,nə də qorxansan.
İgidin əlində qılınc ,qalxansan,
Gözəlin əlində gül-çiçəksən pul.

Toxuyanın səni gerçək toxuyur,
Qoxlayanın sanki çiçək qoxuyur.
Sahibdir bir səni göyçək oxuyur,
Gözəl yaranıbsan sən göyçəksən pul.

## UZAQDAN BAXIRAM UZAQLIĞIMA

Dünyaya bu olan axınlıq nədə?
Dünya ki böyümür, nə də kiçilmir.
Heç də bu dünyaya yaxınlıq, nə də
Uzaqlıq durduğun yerlə ölçülmür.

Özü öz suyuna bulaq da dolmur,
Özü ,öz-özüylə barışıb hər şey.
Yox, seçə bilmirsən, seçmək də olmur.
Yaxına, uzağa qarışıb hər şey.

Sinəmin altında könlüm bax inlər,
Axır ki, ahıma yiyə oldunuz.
Gözümün uzağı olan yaxınlar,
Könlümün uzağı niyə oldunuz?

Göz qarası deyil, heç göz də deyil,
Olaram dünyaya göz ağı mən bir.
Beş deyil, on deyil, heç yüz də deyil,
Şeir oxuyaram uzağı mən bir.

Duyan adamların ürəyi yatar,
Ağlayar yaxınlar, gülər uzaqlar.
Elə də olar ki, yaxınlar atar,
Adamın hoyuna gələr uzaqlar.

Yaşadığınla da bir dam altında,
Sən elə olur ki, uzaq olursan.
Ürəyin boğulur dərd-qəm altında,
Yaşaya-yaşaya yazıq olursan.

Qoy uzaqdan baxım uzaqlığıma,
Məndən uzaq tutun məndən uzağı.
Baxmayın bu qədər yazıqlığıma,
Dünyanın yoxdurmu məndən yazığı?!



## KEÇİM

Mənə nə olub ki, durum,
Çağlayan çayımdan keçim.
Hər löyün çiçək bitirən,
Yazımdan ,yayımdan keçim.

Su nədir köpündən keçmir,
Bir qarış ipindən keçmir.
Camaat çöpündən keçmir,
Nurumdan, ayımdan keçim?

Olsa da, hərdən döyülən,
Olmayıb Sahib əyilən.
Adına sevgi deyilən,
Bal kimi payımdan keçim?

## YAZIRAM

Gözümü yumuram, yuman kimi də,
Girirsən yuxuma səni yazıram!
Oxuya bilirsən, məni oxu, ya
Eh, bir də oxuma, səni yazıram!

Dadsan bilərsən ki, necə daddı, bu
Həmişə yanacam, mənə oddur, bu...
Sinəmin altında ürək adlı, bu
Varıma-yoxuma səni yazıram!

Sahib çox çisəkdən, çiskindən keçib,
Boğulur, bax qara tüstündən keçib.
Azalan azının üstündən keçib,
Çoxalan çoxuma səni yazıram!



## SEVİRƏM

Mənsiz bir buludu dola da bilməz,
O dağı dumandan, çəndən sevirəm!
Bir gün o yan, bu yan ola da bilməz,
Mən səni sevdiyim gündən sevirəm!

Özünə gen olan bu dünya dardır,
Biri od olsa da, bir üzü qardır.
Heç məndə bu qədər sevgimi vardı,
Sevgimi alıb da səndən sevirəm!

Sahibəm, sevgi tək gərəyimdəsən,
Suyumda, havamda, çörəyimdəsən.
Gecəli-gündüzlü ürəyimdəsən,
Elə bilmə səni gendən sevirəm!



## BU QARI GECƏ

Elə gecədir ki, bu qarı gecə,
Bəzi qarılar tək donqultusu yox.
Aparır özünü necə, gör necə,
Səsinin səsindən cingiltisi çox!

Göz qoyub üstünə gözləyə bilir,
Olan hər bir günə bu yarı gecə...
Sevəni qoynunda gizləyə bilir,
Sevənə yar olur bu qarı gecə!

Ürəyini verib qaranlığına,
Çəkir sinəsinə yaşadır onu...
Oyadır quşları toranlığına,
Hər gün belə bitir gününün sonu.

Deyil, bu gözəllik gəlinlik, qızlıq,
Belə gözəl olmur bu qara donda.
Başına götürsə, qaranlıqsızlıq,
Bu gecədən gecə olmaz ki onda.

Olmağıyla yenə qarıdan qarı,
Əlindən verməyib qarılığını.
Keçirib gününü qaradan qara,
Qoruyub saxlayıb qaralığını.

Qovlayır, qoynuna qoymur nə fayda,
Olur al Günəşin məzarı gecə.
Onunla bacarmır ulduz da, ay da,
Bağlayır işığa bazarı gecə!

Xəbəri olmayıb öldüyü gündən,
Bilməyib başının ucası ölüb.
Elə bil dünyaya gəldiyi gündən,
Bu qarı gecənin qocası ölüb!

## BİR SALAM

Göndərmədi nə bir yar,
Nə bir bacı bir salam!
Eşitmədim nə şirin,
Nə bir acı bir salam!

Utanırmı o şəhər?
Sən də elə bir təhər.
Göndərirsən hər səhər,
Barmaqucu bir salam!

Üzünü bəri döndər,
Sözümə nə söz çöndər.
Borc olsun, borcluq göndər,
Bir əlborcu bir salam!

Günü yaxır günümün,
Ünü çıxır ünümün.
Dönüm, axır dönümün,
Olsun tacı bir salam!

Göyərmir göyüm sənə?
Çatırmı küyüm sənə?
Uşaqsan, deyim sənə?
Qucu-qucu, bir salam!

Keçən ömrü teyləyim,
Gələn günü əyləyim.
Göndər gəlsin eyləyim,
Könül xərci bir salam!

## BÖYÜRDƏN GÜLƏR

Ağlar gözüm qarası,
Ağı böyürdən gülər.
Çoxdur solun yarası,
Sağı böyürdən gülər!

Dolan gözünə baxmaz,
Bulağından su çıxmaz.
Dərəsindən sel axmaz,
Dağı böyürdən gülər!

Qanmazın bəh-bəhinə,
Quş ölər cəh-cəhinə.
Bükülüb Qəh-qəhinə,
Yağı böyürdən gülər!

## SƏNDƏN

Almışam, nə almışam,
Hər nə var baha səndən.
Ayrılığın o üzü
Görünür aha səndən!

Səninki bir can almaq,
Adamı oda salmaq.
İstəmirəm heç qalmaq,
Gedirəm daha səndən.

O göyü əyəsiyəm,
Sözümün yiyəsiyəm.
Onsuz da, deyəsiyəm.
Sözüm var şaha səndən!

## YER TƏKLİYİ

Özünü gətirə bilmir bilməsin,
Məndən aparmağa gəlmirsən məni?
Ayağın ötürə bilmir bilməsin,
Gözünlə ötürə bilmirsən məni?

Sinəmə sancılan sancaq sənlikdir,
Sancılsın, könlümü buraxım sənə.
Sənə darıxmağım ancaq sənlikdir,
Elə eylə hər gün darıxım sənə.

Gözləyib sözümü sonda deyərəm,
Tez desəm, qorxuram, itiniz hürə.
Səndə göz var imiş, onda deyərəm,
Əgər baxa bilsən, mən baxan yerə.

Gedirəm, bu dağdan götürüb çəni,
Sən də di qayıt gəl, dön işığına.
Ayrı bir işıq yox, tapşıram səni,
Səni tapşırıram gün işığına.

Mənim göydən yerə yer təkliyim var,
Saxlaya bilirəm görüm onu da?
Mənim nəyim var ki? Bir təkliyim var,
İstəyirsən, sənə verim onu da.

Elə bilmə, əliboş gəlib yerin,
Adamam, döndərib, məni quş edib.
Gəlib ürəyimə, xoş gəlib yerin,
Gəlib ürəyimə, məni xoş edib.

Bu bir nə ilk, nə də son sözün olur,
Ancaq son söz kimi çıxır dilindən.
Hərdən bir yerinə on sözün olur,
Çıxar bir son sözü axır dilindən!

## DÜŞÜM

Düşmək ilə qurtarmıram,
Sözəm, sözündən düşürəm.
Gözündə nə qədərəmsə,
Hər gün gözündən düşürəm.

Soğanc olub soğuluram,
Ölür, birdə doğuluram.
His, tüstünə boğuluram,
Küləm, közündən düşürəm.

Nə içmişəm, nə yemişəm,
Nə susmuşam, nə demişəm.
Yəqin gözündə imişəm,
Yaşam, üzündən düşürəm.

Ayağın nə yol basacaq,
Nə basacaq, bol basacaq.
Tikan tutub, kol basacaq,
Qoyma, izindən düşürəm.

Təpə aşıb, dərə keçdim,
Neçə bulaqdan su içdim.
Dağından düzünə düşdüm,
İndi düzündən düşürəm.

Gəzim çayda çay daşımı,
Tapım göydə göy quşumu.
Saxlaya bilmir başımı,
Daha dizindən düşürəm.

Susmuşdun, ya çağlamışdın,
Gülmüşdün, ya ağlamışdın.
İçindəmi saxlamışdın?
Bir bax, özündən düşürəm!



## ŞƏKİLİ GÖZƏL

Biz ki yaraşırıq bir-birimizə,
Ay həm özü, həm də şəkili Gözəl.
Gəl şəkil çəkdirək, sən olmayanda,
Bağrıma basacam şəkili, gözəl!

Yaxın ol doğmaya, uzaq ol yada,
Sal qalsın bu sözü yaddaşa, yada.
Şəklinmi gözəldir, ya özün, ya da
Çəkən yaxşı çəkib şəkili gözəl?!

Sahib, ilk də keçib, axır da gəlib,
Hörgünə daş-qum da, a, xır da gəlib.
Dolanıb, dolanıb axırda gəlib,
Mənim olacaqsan, Şəkili gözəl!

## BİZİM DAĞDIR

Bax odur, görünür başı,
Göyə dəyən bizim dağdır.
Yaz-yayını, güz-qışını,
Külək döyən bizim dağdır!

Sözünü gerçəyə sarı,
Üzünü göyçəyə sarı,
Özünü Göyçəyə sarı,
Azca əyən bizim dağdır!

Ovum olub o bərədə,
Tanışımdır bu dərə də...
Dağlar çoxdur yan-yörədə,
Bu dağ, deyən, bizim dağdır!

## DEYİLƏM Kİ...

*(Gülayə Könülə)*

Dizdə kaman, qucaqda tar,
Dodaqda ney deyiləm ki...
İki də yox, ancaq birəm,
Sözdə hər şey deyiləm ki...

Könlüm yaxşı sözə uçan,
Yaman sözdən uzaq qaçan...
Ağız yuman, ağız açan,
Ay hay, ay hey deyiləm ki...

Əldə qopuz bir ozanam,
Söz üçün ürək qazanam.
Mən Sahibəm, söz yazanam,
Gəl balam eyyy, deyiləm ki!!!

## AYNURA SARI

*(Təcnis)*

Mənə göndərdiyi yaşıl yerinə,
Yanıldım göndərdim Aynura sarı.
Ona sarılacam könlüm gücünə,
Tanrım, götür məni Aynura sarı.

Qarışıb ün göyə, göydə göy ünə,
Qarası ağına, ağı göyünə.
Bir bax başın üstə sevgi göyünə,
Nur aya sarıdır, Ay nura sarı.

İki ürək vurur iki sinədə,
Sanki qol çəkmişəm iki sənədə.
Sahib qurban olsun ikisinə də,
Ürək ha çırpınır Aynura sarı!!!



## ÜRƏYİM DƏYİŞİK DÜŞÜB

Çırpınan baxıram sənsən,
Ürəyim dəyişik düşüb!
Öldürmə, axırım sənsən,
Ürəyim dəyişik düşüb!

Bu günüm dünənə keçib,
Ayrı gör yenə nə keçib?
Sinəmdən sinənə keçib,
Ürəyim dəyişik düşüb!

Nə var məndə bilməyibsən,
O xoş gündə bilməyibsən,
Mən heç, səndə bilməyibsən,
Ürəyim dəyişik düşüb!

Hərəmizdə tək-tək idi,
Bəlkə, səndə say, ikidir
Məndə olan səndəkidir,
Ürəyim dəyişik düşüb!

Elə bildim, itirmişəm,
Bağışla, səhv götürmüşəm.
Səninkini gətirmişəm,
Ürəyim dəyişik düşüb!

## GÖYDƏ BULUDA ŞİMŞƏYƏM

Gözümdə danım sökülür,
Axşama baxsam, öləcəm!
Şimşəyəm göydə buluda,
Bircə yol çaxsam, öləcəm!

Suyam, məcradan çıxmışam,
Neçə daş-qaya yıxmışam.
Bu günə kimi axmışam,
Bir yolda axsam, öləcəm!

Sonumdayam, heçimdəyəm,
Yol gedirəm, köçümdəyəm.
Mən özüm öz içimdəyəm,
Çölümə çıxsam, öləcəm!

## ŞƏKİLİ GƏLİN

*(Təcnis)*

Onsuz da, şəkildən tanıyacaqlar,
Gəl birgə çəkdirək şəkili, gəlin!
Bizim aramızda qoymayaq olsun,
Bu il şübhə ili, şəkk ili, gəlin!

İçən özümüzük, çəkən özümüz,
Nə var, dərdimizi çəkən özümüz.
Çəkilən özümüz, çəkən özümüz,
Çəkək gözümüzə şəkili gəlin!

Özündən salıbsan, şəkilin düşüb,
Çöpünə, yəqin öz Şəklin düşüb.
Gözümə yaxşı bir şəkilin düşüb,
Nursan gözlərimə, Şəkili gəlin!

Sahibi yanaşı qoy Şəki ilə,
İl Şəkiyə dönsün qoy Şəki ilə.
Gədəbəy qovuşsun qoy Şəki ilə,
Bir yolda gələndə Şəkili gəlin!

## OLMAYIB HEÇ

Ay səni, ağlayan Sahib!
Gülən günün olmayıb heç?
Özündən gedib, özünə
Gələn günün olmayıb heç?

Nə sarslıb, nə solubsan?
Bu nədir, yenə dolubsan?
Bilməmiş kimi olubsan,
Bilən günün olmayıb heç?

Yarı susan, yarı qansan,
Nə sevgindən yarıyansan!
Ölməyibsan, yarıcansan,
Ölən günün olmayıb heç?



## YERİ

Sənə sorğu göndərdim,
Bildim də cavab yeri.
Sən də məcbur deyilsən,
Heç olma savab yeri.

Gendən bir hücum oldu,
Uzaq əlucum oldu,
Elə öz ovcum oldu,
Göz yaşıma qab yeri.

Ay könlümün var-yoxu,
Gəl bir yol onu oxu.
Sən olmalıydın axı,
Könlümün də tab yeri.

## BOŞALDIN

Əskik deyil dilinizdən,
Hey deyin, heyi boşaldın!
Gəlir, onsuz, əlinizdən,
Gələn hər şeyi boşaldın!

Görmürəm ki, bir üzünü,
Ölçəm-biçəm hər üzünü,
Boşaltmayın Yer üzünü,
Qoy deyim, nəyi boşaldın!

Ağlayım bir neçənizdə,
Qoy ağlasın küçəniz də.
Saxlamayın içinizdə,
Olan səs-küyü boşaldın!

Qul olanın bir bəyi yox,
Bişib qurtarıb çiyi yox,
Məndən də adam iyi yox,
Bir ölüm iyi boşaldın!

Ayrılsın da o qızlardan,
Biri gəlsin can sızladan.
Təmizləyin ulduzlardan,
Ölürəm, Göyü boşaldın!

## YAXIN YALIN, UZAQ YALIN

Yalınlığı başa qaxı,
Yazıq olub yazıq yalın.
Arada durum neynəyim?
Yaxın yalın, uzaq yalın.

Söküb-qurub yazımızı,
Allah vurub yazımızı,
İndi durub yazımızı,
De biz də mi yazaq yalın?

Sağdan vuraq, soldan çıxaq,
Öldən düşək, oldan çıxaq.
Yolda ikən yoldan çıxaq,
Yolumuzu azaq yalın.

Gerçəyini yalanlayır,
Soyuğunu qalınlayır.
Üz-gözümü yalınlayır,
Əsir özü sazaq yalın.

Öyməyə öyümlü adam,
Deməyi deyimli adam,
Ürəyi geyimli adam,
Olar neynək ayaqyalın!

## GEDƏK

Bura durmaq yeri deyil,
Durmayaq, dağılaq gedək.
Kimsə bizi boğmayacaq,
Özümüz boğulaq gedək.

Sən istiyə, mən sazağa,
Sən yaxına, mən uzağa,
Qonaq olaq bir yazığa,
Bir yolluq yığılaq gedək.

Əl vur, canında isti yox,
Yanar odunda tüstü yox.
Ölü götürür, xəstə yox,
Gəl biz də sağalaq gedək.

Səndə yaylıq, məndə papaq,
Çıxaq, başımızdan qopaq.
Hərəmiz bir ana tapaq,
Yenidən doğulaq gedək.

Bu dünya belə dünyadır,
Ölə ki, ölə dünyadır.
Adı ki hələ dünyadır,
Adından soğulaq gedək.

## QUCAĞIDIR

Pisimi var deyəm, nə də
Yamanının qucağıdır.
Hamımızı saz saxlayan,
Dumanının qucağıdır.

Sağlığımla sağ ahının,
Üzü ağdır ağ ahının,
Yuvam tək bir dağ ahının,
Amanının qucağıdır.

Sahib demir hər gəraylı,
Kürlüyüdür kür gəraylı.
Sözüm məndən bir gəraylı,
Umanının qucağıdır.

## BAYATI ÇIXAR

Dağından yaz qoşmasını,
Yeldən bir bayatı çıxar.
Dərəsini demirəm heç,
Seldən bir bayatı çıxar.

Yaza qatma bu yazı hər,
Yazı deyil bu yazı hər,
Danışdırsan ən azı hər,
Dildən bir bayatı çıxar.

Gəl saxlama kin elə çox,
Danış belə, din belə çox,
Eldən çıxar min, hələ çox,
Eldən bir bayatı çıxar?

İçin qızışsın istində,
Çölün boğulsun tüstündə.
Yan-sön sözünün üstündə,
Küldən bir bayatı çıxar.

Adam gərək sıxıla da,
Adam gərək yıxıla da.
Tut burnuna, qoxula da,
Güldən bir bayatı çıxar.

Qağayıya, bax o Quya,
Sən balıq tutansan guya?
Balıq olmasın, gir suya,
Göldən bir bayatı çıxar.

Neynəyirsən, heçdən durub,
Bizimki gəl, keçdən durub,
Yazarsansa, içdən durub,
Çöldən bir bayatı çıxar.

Nə baxırsan, durub gendə?
Elə işin budur gündə.
Daradığın, ay qız, səndə,
Teldən bir bayatı çıxar.

Şair dönə bir yanara,
Sözü hər yana qanıra.
Yazmazsan, ay Sahib, sonra,
Əldən bir bayatı çıxar.

## DARIXIB GÜL GÜLƏNDƏ DƏ

Darıx göz yaşına görə,
Darıxıb sil siləndə də.
Ürəyini iki yerə,
Darıxıb böl böləndə də.

Addımı addıma qatma,
Suç götürüb, suça batma.
Darıxmamış addım atma,
Darıxıb gəl gələndə də.

Tək sinə dağlamaq deyil,
Qara da bağlamaq deyil,
Darıxmaq ağlamaq deyil,
Darıxıb gül güləndə də.

Gurulda, gur axıb öyrən,
Dərdini buraxıb öyrən.
Hər şeyi darıxıb öyrən,
Darıxıb bil biləndə də.

Qorxun vara, qorxma yoxa,
Qorx yazdığın qara çıxa.
Yaşa darıxa - darıxa,
Darıxıb öl öləndə də.

## BAYRAĞIDIR ŞINIX ELİN

(*İmran İslamoğluna*)

Öyrətmənsən, öyrədibsən,
Qalmayıb bir dunuq elin!
Sınıqçısan, sarıyıbsan,
Sınığını sınıq elin!

Qor püskürüb, od saçıbsan,
Nə qorxub, nə də qaçıbsan.
Ərinməyib ha açıbsan,
Donuğunu donuq elin!

Yalnışsa, Sahib dara çək,
Gör neçə yol döyüşüb tək.
Tağılardan Xar-xaradək,
Dayağıdır Şınıx elin!
Bayrağıdır Şınıx elin!



## SƏNDƏN ÖTRÜ DARIXANAM

Bax gözümün güzgüsünə,
Bax, gör ordan bir yarğanam!
Ona, buna - özgəsinə,
Bir iynəyəm, qarağanam!

Tapmaq üçün duru məni,
Qoyub getmə quru məni.
Yaddan-yuddan qoru məni,
İndi sənin qoruğunam!

Kişi deyil ondan beşi,
Kişilik bir kişi işi.
Danışıram kişi-kişi,
Danışmamaqda yorğunam!

Baş buladım, gülmədinmi?
Gülməyindən ölmədinmi?
Gözlərinlə bölmədinmi?
Yarı nökər, yarı xanam!

Yana görə, sönə görə,
Belə bir gül sinə görə.
Açıq deyim sənə görə,
Səndən ötrü darıxanam!

Elə bilmə, bir gün qulam,
Sənə olan sürgün qulam.
Qulluğunda hər gün qulam,
Ömrüm boyu da arxanam!

Bir az toxum, dən Sahibəm,
Bir az duman, çən Sahibəm,
Ölümdən də, mən Sahibəm
Nə çəkinəm, nə qorxanam!



## Kitabın içindəkilər:

Bir şair dağlarda qıy vurur....................3
Dərdi tikmə gözlərinə....................10
Mən dərdimi sevirəm....................13
Məndən Allaha yol çək....................14
Yolçunun batıbdir yol ayağına!....................15
Türkmənçay....................16
Rəssam, çəkə bilsən.......................17
Məni mənim üstümə çək....................18
Qalmayıb....................19
Gəl təzə yaramı gəl, təzə sarı....................20
Yazıram bu dumanı....................22
Bu gün Məmməd Əmin günü....................23
Oxu, kəklik....................25
O qalxan əl gör kimindir?....................27
Qırx beşə qonub quşun....................28
Yanvarda ad günü....................30
Ürəyimi dayandırım, min ona....................31
Məni çəkmə gözlərinə....................33
Göyündə heç quş varmı?....................35
Kəsdilər o adamı....................37
Gözlət gözünü, gözləsin....................38
Bu şair yeni göy tapıb....................39
Özümü özümə basırmışam....................41
Dağa qalxmaq istədim....................43
Yerim tanışdır mənə....................44
Allahdan əlucu tutum....................45
Ölmək olar....................47
Olmaz....................48
Ölərəm tabutlar öləndə....................49
Dur, gözüm, çoxu qalxıb....................50

Saxla mən ölənə öpdüyüm yeri ........ 51
Qürbət ürəyimə, ya ayağıma ........ 52
Üst-üstə qoy bu canı ........ 54
Bu yağan qarın adı nə? ........ 56
Uçub, ucamdan keçərəm ........ 58
Söz gələn yerə gedirəm ........ 59
Ağ yalan danışırsan ........ 61
Para dağ istəyirəm ........ 62
Sinəmdə dağ qımıldanır ........ 64
Din elə nəfəsini ........ 65
İlahi, nə deyim, özün araşdır ........ 67
Sevgi, gözəllik, azadlıq ........ 68
Verim sevgi iç ........ 70
Yandırmır ki hər köz daşı ........ 71
Çək sinənə, yat məni ........ 72
Ağrımışam ........ 74
Bir nəfəsə bağlıyam ........ 75
Üçdə bir şair olmadım ........ 76
Səsini çıxardarsan ........ 77
Sahib düşüb sevdasına dağların ........ 79
Gözümdə göz yaşı bircə yağım var ........ 81
Saxlaya ruhumu tanrının özü ........ 82
Ürəyini qur da, sinəndən döyün ........ 83
Bu toyu gözəl edibsen ........ 84
Rus, çıx qarabağdan ........ 85
Öldürüm sinəmdə bir dost, basırım? ........ 87
Rus gəldi Qarabağa ........ 89
Kimdir, görən, bu Rusiya? ........ 90
Keçdiyin dərsin mübarək! ........ 91
Bax bayrağa ay Allah ........ 92
Göyə, qırmızıya, yaşıla görə ........ 93

Qarabağın adıdır ..... 94
Ölsün ələsgər tək qulların, dağlar! ..... 96
Obası alınan obalı atan ..... 97
Balana saxlama sən ölümünü ..... 98
Tanrı ürəyimə gəlib, deyəsən ..... 100
Köçümü yatırdın yatdı ..... 101
Hər kişi bir Vətəndir ..... 102
Salam, ordu, salam, qoşun ..... 103
Oturub başımda papaq rahatca ..... 105
Vaxtın qulağını burub gedirəm ..... 106
Qəfəsimə durum ..... 107
Hamı yeyir, söz qusur ..... 108
Yatmaq istəyirəm içkidə ..... 109
Qarla qarı qarla, dağlar ..... 110
Yenə də gün çıxıb, dağlar gündədir ..... 111
Məktub ..... 112
Mən daha hər şeyi nisyə alıram ..... 113
Dünya sənin olmayacaq ..... 115
Tapsam, tanıyaram gülündən onu ..... 117
Dodaqlar altında bir şair ölür ..... 118
Yoxsa, on beş yaşlı qızdırmı ölüm ..... 119
Günaydın əvvələ, salam axıra ..... 120
Sahibə dönəli üzüm ..... 121
Ən yaxşı qonaqçı ..... 123
Yaşayırmı sahib səndə? ..... 124
Ramizə dönəcək çən Gədəbəydə ..... 125
Qırx beşin üstündə gələcək bu il ..... 126
Göy özümü, yaşıl səni görürəm ..... 127
Göz yaşı gözündə tumurcuqladı ..... 128
Qoyunu qəssab oxuyur ..... 130
Dağ pencəkli kişi , dağ donlu qadın ..... 131

Əyib öldürdülər dəmirağacı ........ 132
Düşməsin bir papaq, ad ayaq altda ........ 133
Təzyiq edir bağa çiçək ........ 134
Gəzirəm dünyanı qarşıma çıxmır ........ 136
Yazıram şeirimi qana batırıb ........ 137
Sən ey imperiya, sən ey Rusiya ........ 139
Sahibəm, oldan ol idim ........ 143
Gədəbəydən Kəlbəcərə gedirəm ........ 144
Ay Sahib, atlanmır daha sinən də ........ 145
Sahib, sevgi olmaz qarın dolusu ........ 146
Şagirdlərim-dəlilərim ........ 147
Satılan sevginin butası puldur ........ 149
Baxın, bu, Xocalıdır! ........ 150
Kənd ........ 153
Torpağının ucundan ........ 155
Kim ayrı bir ada... ........ 157
Yenidən qurulacağam ........ 159
Vağzal ........ 160
Yuxumu verim quşa ........ 163
Pul ........ 164
Uzaqdan baxıram uzaqlığıma ........ 165
Keçim ........ 167
Yazıram ........ 168
Sevirəm ........ 169
Bu qarı gecə ........ 170
Bir salam ........ 172
Böyürdən Gülər ........ 174
Səndən ........ 175
Yer təkliyi ........ 176
Düşüm ........ 178
Şəkili gözəl ........ 180

Bizim dağdır ........................................ 181
Deyiləm ki ........................................ 182
Aynura sarı ........................................ 183
Ürəyim dəyişik düşüb ........................................ 184
Göydə buluda şimşəyəm ........................................ 185
Şəkili gəlin ........................................ 186
Olmayıb heç ........................................ 187
Yeri ........................................ 188
Boşaldın ........................................ 189
Yaxın yalın, uzaq yalın ........................................ 190
Gedək ........................................ 191
Qucağıdır ........................................ 192
Bayatı çıxar ........................................ 193
Darıxıb gül güləndə də ........................................ 195
Bayrağıdır Şınıx elin ........................................ 196
Səndən ötrü darıxanam ........................................ 197

**SAHİB CAMAL**

# MƏN DƏRDİMİ SEVİRƏM



**Qeyd üçün**

"Elm və təhsil" nəşriyyatının direktoru:
***professor*** **Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı
**Korrektor:** Günel Cəfərova

Çapa imzalanmış 17.03.2021
Şərti çap vərəqi 13. Sifariş № 59
Kağız formatı 60x84 1/16. Tiraj 300

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4